RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 162 (9617) 2 avqust 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zelim Kotsoyevə zəng ediblər

**Avqustun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarında Olimpiya çempionu olmuş azərbaycanlı cüdoçu Zelim Kotsoyevə zəng ediblər.**

Prezident İlham Əliyev və birinci xanım Olimpiadanın qızıl medalını qazanması münasibətilə Zelim Kotsoyevi təbrik edib, ona gələcəkdə də yeni uğurlar arzulayıblar. Dövlətimizin başçısı Azərbaycan idmançılarının Olimpiya Oyunlarında cüdo idman növü üzrə ilk dəfə iki Olimpiya qızıl medalını qazandıqlarını qeyd edərək, bu münasibətlə təbriklərini eyni zamanda komandanın məşqçilərinə və Cüdo Federasiyasının rəhbərliyinə çatdırıb.

Telefon zənginə və səmimi təbriklərə görə dövlətimizin başçısına və birinci xanıma minnətdarlığını bildirən Zelim Kotsoyev öz qələbəsi ilə Azərbaycan bayrağını ucaltmaqdan və himnimizi səsləndirməkdən fəxr hissi keçirdiyini deyib. O, yeni qələbələr qazanmaq üçün bundan sonra da bütün səylərini əsirgəməyəcəyini vurğulayıb.

*Prezidentin Mətbuat Xidməti*

## Münasibətlər dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir

İsveçrə Konfederasiyasının Prezidenti
zati-aliləri xanım Viola Amherdə

Hörmətli xanım Prezident.

İsveçrə Konfederasiyasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan ilə İsveçrə arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir. Ölkəmizin noyabr ayında evsahibliyi edəcəyi COP29 çərçivəsində iqlim dəyişmələri ilə mübarizə sahəsində İsveçrə ilə sıx əməkdaşlıq edəcəyimizə ümidvaram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, İsveçrə Konfederasiyasına daim rifah və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2024-cü il*

## Birinci vitse-prezident Mehriban Əliyeva Zelim Kotsoyevin Olimpiya çempionu olması ilə bağlı paylaşım edib

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Zelim Kotsoyevin Olimpiya çempionu olması ilə bağlı paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Cüdoçu Zelim Kotsoyev Paris Yay Olimpiya Oyunlarında Azərbaycana növbəti - 2-ci qızıl medalı qazandırdı! İdmançımızı səmimi-qəlbdən təbrik edir, ona güc, enerji, yeni-yeni nailiyyətlər və qələbələr arzulayıram!"




# Həmin gün mütləq gələcək



## Qərbi Azərbaycana qayıdışımız əsas hədəflərimizdən biridir

Vətən müharibəsindəki tarixi zəfərimizdən, ölkəmizin ərazi bütövlüyünün bərpası və dövlət suverenliyinin təmin olunmasından sonra Azərbaycan dövləti qarşısında əsas milli hədəflərdən biri də müxtəlif illərdə Ermənistanda aparılan etnik təmizləmə siyasəti nəticəsində qədim yurd yerlərindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin hüquqlarının beynəlxalq müstəvidə bərpası məsələsi idi. Bundan başqa, həmin dogma torpaqlarda Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliği, bu irsin tam məhvinin qarşısının alınması, həmin insanların öz ata-baba yurdlarına qayıtmaq hüququnun təmin edilməsi və birgəyaşayışa nail olunmasıdır.

Tarixi qələbəmizdən sonra yaranmış yeni reallıqlar dövründə bu istiqamətdə fəaliyyət gücləndirilib. "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisi kimi 2022-ci ilin avqustundan "Qərbi Azərbaycan İcması" adı altında fəaliyyət göstərən təşkilat üzərinə düşən missiyanı uğurla yerinə yetirir. Ermənistan ərazisindəki tarixi irsimizlə bağlı elmi tədqiqatlar davam etdirilir, beynəlxalq əlaqələr genişləndirilərək Qərbi Azərbaycandan olan soydaşlarımızla bağlı həqiqətlər dünya ictimaiyyətinə çatdırılır, azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi məqsədilə hazırlanmış konsepsiya - Qayıdış Konsepsiyası üzrə ardıcıl tədbirlər həyata keçirilir. Tarixboyu böyük haqsızlıqlara məruz qalmış qərbi azərbaycanlıların hüquqlarının bərpası məsələsi regional təhlükəsizliyin və Ermənistanla Azərbaycan arasında münasibətlərin bərpa olunması kontekstində ilk sırada baxılmalı olan vəzifələrdəndir.

Bu torpaqlar bizim milli yaddaşımızdır. Erməni vandalları öz bəşəri cinayətlərinin izini itirmək üçün hər nə qədər bu torpaqlarımızdakı tarixi, dini abidələrimizi yerlə yeksan etsələr də, bununla azərbaycanlıların tarixi irsini silmək istəsələr də, torpağın yaddaşını axıra qədər məhv etmək mümkün deyil. İndi bu yaddaşı daha da oyatmaq, qərbi azərbaycanlıların pozulmuş hüquqlarını beynəlxalq məhkəmələr qarşısında qaldırmaq, Ermənistanın qəsbkar əməllərini bu səmtdə də dünya ictimaiyyətinə çatdırmaq və haqqımız olanları əldə etmək vaxtıdır. Ona görə də beynəlxalq ictimaiyyətin bu məsələ barədə düzgün məlumatlandırılması, ermənilərin və onların havadarlarının uzun illər ərzində bu mövzu ətrafında yaratdıqları informasiya blokadasının ortadan götürülməsi tarixi ədalətin bərpasına, bölgəmizdə əbədi sülh üçün daha münbit şəraitin yaranmasına xidmət edəcəkdir. Bu baxımdan, hazırda Azərbaycanın liderliyi ilə bölgəmizdə davamlı inkişafın, əməkdaşlığın təmin olunması məqsədilə aparılan proseslər Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızla bağlı problemin də ədalətli şəkildə həllindən keçir. Ona görə də bu mövzunu hər imkanda aktuallaşdırmaq, Azərbaycan dövlətinin qətiyyətli mövqeyini ifadə etmək lazım gəlir.

Qərbi azərbaycanlılarla bağlı məsələyə II Şuşa Qlobal Media Forumunda da xüsusi diqqət yönəldildi. Forum "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusuna həsr edilmişdi. 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı forumu əhəmiyyətli edən əsas amillərdən biri, təbii ki, Prezident İlham Əliyevin tədbirdə iştirakı, dünyanın müxtəlif ölkələrindən bu nüfuzlu mediaforuma qatılmış qonaqların ən müxtəlif mövzularda çoxsaylı suallarına verdiyi təfərrüatlı cavablar idi.

Prezident İlham Əliyev forumda qərbi azərbaycanlılarla bağlı sualları da ətraflı cavablandırdı. Bunun mühüm əhəmiyyəti ondadır ki, ermənilərin Qərbi Azərbaycanda apardıqları etnik təmizləmə siyasəti uzun illər ərzində dünya mediasında işıqlandırılmayıb. Ermənilər və onların havadarları dünya ictimaiyyətinin bu mövzuda məlumatsız qalmasına, yaxud məsələnin qərəzli şəkildə, yalanlara bürünərək təqdim edilməsinə nail olublar. II Şuşa Qlobal Media Forumu isə göstərdi ki, Azərbaycan bu istiqamətdə də üstünlüyü ələ alaraq beynəlxalq aləmə əsl həqiqətləri çatdırır.

→ 2

# İKİNCİ QIZIL

## Parisdə növbəti dəfə Azərbaycan bayrağı zirvədə dalğalandı



Dünyanın ən möhtəşəm idman bayramında - XXXIII Yay Olimpiya Oyunlarında gərgin mübarizə davam edir. Daim qazandığı qələbələrlə xalqımızı sevindirən atletlərimizin qarşıdakı günlərdə medal sayını artıracağına, ümidləri doğruldacaqlarına inam tamdır. Təbii ki, medalların sayında qızılın çox olmasını arzulayırıq. Amma dünyanın ən güclü idmançılarının mübarizə apardığı turnirdə istənilən əyarlı medallar böyük qələbə deməkdir.

Sevindirici haldır ki, ilk olaraq Parisdə cüdoçumuz Hidayət Heydərov qızıl medal qazanmaqla xalqımızı sevindirdi. Növbəti qürur dolu anları



Azərbaycana cüdoçumuz Zelim Kotsoyev yaşadıb. Belə ki, təmsilçimiz Fransanın paytaxtı Parisdə növbəti qızıl medalı qazanaraq, dövlət himnimizi səsləndirdi, bayrağımızı hamıdan yüksəkdə dalğalandırdı. Necə deyərlər, Parisdə növbəti dəfə Azərbaycan bayrağı zirvədə dalğalandı.

→ 11

## Boksçumuz yarımfinalda



"Paris-2024"də boks yarışları davam edir.

Dünən Azərbaycan boksçusu Alfonso Dominqes növbəti döyüşünə çıxıb.

92 kq çəkidə çıxış edən təmsilçimiz 1/4 finalda qüvvəsini sınayıb. O, Aybek Oralbayla (Qazaxıstan) üz-üzə gəlib. Boksçumuz rəqibini 3:2 (28:29, 29:28, 28:29, 29:28, 29:28) hesabı ilə məğlub edib.

Fransa paytaxtında ardıcıl ikinci qələbəsini qazanan Alfonso yarımfinala vəsiqə ilə Olimpiadanın mükafatçıları sırasında yerini təmin edib. O, finala vəsiqə üçün qarşılaşmada Enmanuel Reyes Pla (İspaniya) ilə üz-üzə gələcək. Bu döyüş avqustun 4-də keçiriləcək. Qeyd edək ki, 1/4 finala yüksələn digər boksçumuz Murad Allahverdiyev (80 kq) bu gün rinqə çıxacaq.

# Azərbaycan kino işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32 ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Cilqamlı Rəmziyə Əkrəmovna
Quliyeva Gülşən Rəsul qızı
Məmmədov Rövşən İsax oğlu
Nəcəfov Bayram Hidayət oğlu
Yunusov Ədalət Məmməd oğlu.

2. Azərbaycan kinematoqrafiyasının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Qurbanova Firəngiz Ağa Dadaş qızı
Rüstəmov Akif Zabi oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 avqust 2024-cü il*

# *Ceyhun BAYRAMOV:* "Regional sabitliyə hədə törədən addımlar hələ də qalmaqdadır"

**Avqustun 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Türkiyə Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Cənubi Qafqaz Baş İdarəsinin rəisi Mehmet Samsarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında mövcud müttəfiqlik münasibətlərindən irəli gələn məsələlər, çoxtərəfli formatlar çərçivəsində əməkdaşlıq, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Belə qarşılıqlı səfərlərin və XİN-lərarası məsləhətləşmələrin iki ölkə arasında gündəlikdə duran ikitərəfli və regional məsələlər üzrə ətraflı müzakirələrin aparılması baxımından əhəmiyyətli olduğu vurğulanıb.

İki ölkə arasında beynəlxalq və regional təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində, o cümlədən ölkələrimizin iştirakı ilə müxtəlif üçtərəfli və çoxtərəfli formatlar çərçivəsində əməkdaşlığın intensivləşməsinin zəruriliyi qeyd olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Sülh prosesinin qarşısında duran çağırışların, o cümlədən ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən və Ermənistan konstitusiyasında iddiaların, üçüncü dövlətlər tərəfindən Ermənistanın hərbiləşməsinə dəstək verərək regional sabitliyə hədə törədən addımların hələ də qalmaqda olduğu diqqətə çatdırılıb.

Bu kimi təhdidlərin sülhə və sabitliyə, bölgədə qarşılıqlı əməkdaşlığa, regional nəqliyyat əlaqələrinin inkişafına, ümumilikdə regional normallaşmaya mane olduğu qeyd edilib, onların aradan qaldırılmasının vacibliyi vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Həmin gün mütləq gələcək

## Qərbi Azərbaycana qayıdışımız əsas hədəflərimizdən biridir

*Əvvəli 1-ci səh.*

### O gün mütləq gələcək

"Azərbaycanlılar öz Vətənlərini - Qərbi Azərbaycanı görəcəklərmi?" - rusiyalı jurnalist Maksim Şevçenkonun vaxtilə Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində doğma yurdlarından deportasiya edilən soydaşlarımız haqqında sualı belə bir konkret cümlə ilə tamamlanırdı.

Suala cavab olaraq tarixə qısa ekskurs edən Azərbaycan Prezidenti xatırlatdı ki, azərbaycanlılar hələ XX əsrin əvvəllərində, 1918-ci ildə başa çatmış İkinci Dünya müharibəsindən dərhal sonra Qərb ölkələrində yaşayan ermənilərin Ermənistana köçürülməsi və onların yerləşdirilməsi kimi tam düşünülmüş bir bəhanə ilə indiki Ermənistan ərazisindən deportasiyaya məruz qalmışlar. 1940-1950-ci illərdə sovet hökuməti tərəfindən bir neçə qərar qəbul edilmiş, yüz minlərlə insan Qərbi Azərbaycanda yaşadıqları, məskunlaşdıqları ərazilərdən sürgün olunmuş, Zəngəzur, Göyçə və digər yerlərdəki təbii-iqlim şəraitindən tamamilə fərqli olan, yaşayış üçün yararsız Kür-Araz ovalığına deportasiya edilmişdir. Onların çoxu, öyrəşmədiyi vəziyyətə dözə bilməyərək vəfat etmişdir. 1980-ci illərin sonlarında isə Ermənistanda azərbaycanlılara qarşı geniş etnik təmizləmə başlanmışdır. Belə bir siyasət bütün dünyanın gözləri önündə baş versə də, əfsuslar olsun ki, bu barədə Qərbin media məkanında bir kəlmə də olsun söhbət açılmırdı.

Azərbaycan Prezidenti bu məqamı diqqətə çatdıraraq xatırlatdı: "Onlar bu barədə susublar. Qafan bölgəsində və başqa rayonlarda azərbaycanlıların Ermənistan ərazisindən vəhşicəsinə deportasiyası haqqında tamamilə susarkən, Ermənistanın yalan hekayəsinə dair yüzfaizli birtərəfli meyil var idi. Prinsipcə, elə hər şey də buradan başladı. Bu, sonradan böyük yanğına çevrilən qığılcım idi. Beləliklə, xalqımız deportasiyanın bütün əzablarını yaşadı".

Azərbaycan Prezidenti əmin olduğunu bildirdi ki, Qərbi Azərbaycandakı doğma yurd-yuvalarından didərgin salınmış soydaşlarımızın o torpaqlara dönə biləcəkləri gün mütləq gələcək. Cənab İlham Əliyev bu məsələdə Ermənistan rəhbərliyinin siyasi iradəsinə, bəyan etdiyi demokratiya və qanunun aliliyi prinsiplərinə sadiqliyinə ümid bəslədiyini də vurğuladı.

Ermənistan üçün bunun ən parlaq nümunəsini məhz Azərbaycan yaradıb. Belə ki, hələ ötən ilin sentyabrında antiterror əməliyyatı keçirilməmişdən əvvəl, Azərbaycan dövləti Qarabağın erməni əhalisinin nümayəndələrini dəfələrlə görüşlərə, söhbətlərə çağırdı. Milli Məclisin deputatları Prezidentin xüsusi nümayəndəsi kimi Qarabağın erməni əhalisi ilə təmasların qurulması, onların sonrakı yaşayışının və həyat fəaliyyətinin müəyyən edilməsi üçün xüsusi olaraq təlimatlandırıldılar. O vaxt Qarabağ ermənilərinin nümayəndələri ilə hətta ilk görüş, onda hələ Azərbaycanın nəzarəti altında olmayan ərazidə - Xocalıda, Rusiya sülhməramlı kontingentinin bazasında reallaşdı. "Ancaq biz həm də o vaxt təklif etdik ki, növbəti görüş artıq nəzarətimiz altında olan ərazidə baş tutsun. Lakin ovaxtkı separatçı rejim bundan imtina etdi. Bir neçə ay ərzində biz onları iki dəfə görüşə dəvət etdik və iki dəfə imtina edildi, bundan sonra isə prosesdə iştirak etməyə çalışan bir çox beynəlxalq oyunçular bizə sual ilə müraciət etdilər: bəs onların həyat fəaliyyəti necə təmin ediləcək? Ona görə də biz reinteqrasiya layihəsini sadəcə olaraq internetdə yerləşdirməyə məcbur olduq. Layihəyə giriş açıqdır. Düşünürəm ki, bu problemlə maraqlananların çoxu onun məzmunu ilə tanış olub. Orada hər şey aydın şəkildə qeyd edilib" - Azərbaycan Prezidenti bununla bağlı məqamları xatırlatdı.

### "Biz oraya tanklarla yox, avtomobillərlə gələcəyik"

Qeyd edək ki, reinteqrasiya layihəsində Qarabağ ermənilərinin Azərbaycan ərazisində hansı şərtlər daxilində - vətəndaşlığı qəbul edəcəkləri təqdirdə qala biləcəkləri qeyd olunmuşdu və bunu necə etməyin qaydası, iş və yaşayış icazəsinin alınması şərtləri göstərilmişdir. Prezident İlham Əliyev vurğuladı ki, başqa ölkənin vətəndaşının digər ölkədə daimi yaşaya bilməsinin hər hansı başqa forması, sadəcə olaraq, mövcud deyil. Amma ermənilər bundan da imtina etdilər. Azərbaycan isə o vaxt hələ nəzarətimizdə olmayan Qarabağda yaşayan erməni millətindən olan vətəndaşların təhlükəsiz həyatını təmin etmək baxımından mümkün qədər konstruktiv idi. Hətta sentyabrın 20-də torpaqlarımıza nəzarəti bərpa edərək separatizmə son qoyanda da yenə erməni əhalisinin nümayəndələri ilə bir neçə görüş keçirildi, amma yenə nəticə əldə olunmadı.

Azərbaycan Prezidenti o qədər də uzaq olmayan bu tarixi faktları xatırlatmaqla ölkəmizin bu məsələyə yanaşmasını bölüşmüş oldu və dövlətimizin Ermənistan hökuməti tərəfindən də eyni yanaşmanı gözlədiyini qeyd etdi: "Biz onlardan açıq-aydın bəyanat gözləyirik ki, bugünkü Ermənistan ərazisindən, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar, yaxud oradan didərgin salınanların övladları və nəsilləri öz tarixi torpaqlarına necə qayıda və həmin yerlərə gedə bilərlər, yaxud həmin torpaqlarda necə yaşaya bilərlər. Üstəlik, bizdə olan kifayət qədər mötəbər məlumatlara görə, azərbaycanlıların yaşadığı kəndlərin 90 faizində indi həyat yoxdur, yəni həmin yerlər boşdur, oralar Füzuli, Ağdam və digər yerlər, habelə bütün digər Azərbaycan kəndləri 30 il ərzində dağıdıldığı kimi yerlə yeksan edilib. Orada bəzi kəndlərdə isə erməni əhalisi məskunlaşıb. Ona görə də mən çox inanıram ki, həmin gün mütləq gələcək".

Qeyd edək ki, bütün bunlar Azərbaycan Prezidentinin Qərbi Azəbaycan məsələsi ilə bağlı ilk fikirləri deyil. Bundan əvvəl də cənab İlham Əliyev bu məsələ ilə bağlı dəfələrlə Azərbaycanın qətiyyətli mövqeyini bölüşüb, gələcəklə bağlı ümidlərini ifadə edib. Əfsuslar olsun ki, erməni diasporunun nəzarətində olan mərkəzlər bu obyektiv və ədalətli mövqeyə, Cənubi Qafqazın bütün sakinlərinin qərarına olan yanaşmaya münasibətdə yenə təxribatçı əməllərindən əl çəkmirlər. Prezident İlham Əliyevin bu fikirlərini əsas gətirərək Azərbaycanı, ölkə başçımızı az qala işğalçı fikirlərə düşməkdə ittiham edənlər də olub. Azərbaycan Prezidenti bir daha belələrinin cavabını verdi: "Mən dedim ki, biz oraya tanklarla yox, avtomobillərlə gələcəyik. Mən bunu indi də deyirəm. Düşünürəm ki, bu mesaj, bugünkü erməni rejiminin sponsorlarının, xüsusən Parisdə və digər Qərb paytaxtlarındakıların onlara çox aydın şəkildə çatdırmalı olduğu ismarışlardan biridir. Axı, indi onlar özlərini ən qabaqcıl avropalılar kimi qələmə verirlər. Qoy onlar Avropa İttifaqına xas olanı - milli azlıqların, onların dilinin, tarixinin, mədəniyyətinin necə qorunmalı olduğunu nümayiş etdirsinlər. Bunu sözdə deyil, əməldə nümayiş etdirsinlər".

Prezident İlham Əliyevin fikrincə, burada təkcə Azərbaycanın istəyi, yaxud ölkəmizin fəaliyyəti kifayət etməyəcək. Azərbaycanın dövlət başçısı bu məsələyə beynəlxalq media qurumları və beynəlxalq qeyri-hökumət təşkilatlarının da qoşulmasını arzuedilən saydı. "Çünki Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların və onların nəsillərinin sayı bu gün Azərbaycanda milyonlarladır. Əgər buna Azərbaycanın region kontekstindən yanaşsaq, bu, əhalisinin sayına görə ölkəmizin ən böyük regionudur".

Azərbaycan dövləti işğal altındakı ərazilərimizin azadlığını, ölkəmizin ərazi bütövlüyünü təmin etdiyi kimi Qərbi Azərbaycandan olan soydaşlarımızın doğma yurdlarımıza qayıdışı məsələsinin də beynəlxalq hüquq normalarına uyğun şəkildə, ədalətli qaydada həllinə nail olacaq və bununla daha bir tarixi nümunə yaradacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Daxili işlər naziri xidmətə qəbulla bağlı növbəti sıra baxışı keçirib

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov avqustun 1-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**





Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib.

Sıra baxışında DİN-ə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 122 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 15 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Özbəkistan nümayəndə heyəti Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyət barədə məlumatlandırılıb

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Özbəkistan Respublikasının İnsan Hüquqları üzrə Milli Mərkəzinin direktorunun birinci müavini Mirzatillo Tillabayev və Özbəkistan Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutunun direktoru Murodjon Turqunov ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə müvəkkil Azərbaycan ilə Özbəkistanın sıx dostluq və qardaşlıq münasibətlərinə malik olduğunu, müxtəlif sahələrdə, o cümlədən insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində səmərəli əməkdaşlıq əlaqələrinin mövcudluğunu bildirib, işğaldan azad edilmiş Füzuli şəhərində Özbəkistan tərəfindən məktəbin inşa olunduğunu minnətdarlıq hissi ilə xatırladıb.

İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verən ombudsman beynəlxalq qurumlarla əməkdaşlığa əhəmiyyət verildiyini, beynəlxalq təşkilatlar, eləcə də xarici ölkələrin ombudsman və milli insan hüquqları institutları ilə əlaqələrin mövcud olduğunu qeyd edib.

Bildirilib ki, "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş dəyişikliklər sayəsində əlilliyi olan şəxslərin və uşaq hüquqlarının müdafiəsi, ayrı-seçkiliyin qarşısının alınması və digər sahələrdə mandatı genişlənib.

Ölkəmizin cari ildə COP29-a evsahibliyi edəcəyini diqqətə çatdıran S.Əliyeva tədbirin yüksək səviyyədə təşkili istiqamətində hazırlıq işlərinin getdiyini, həmçinin ombudsman və milli insan hüquqları institutlarının Bakı Forumunun keçiriləcəyini söyləyib.

Ombudsman eyni zamanda Milli Preventiv Mexanizmin fəaliyyətindən bəhs edib, şəxslərin öz iradəsi ilə tərk edə bilmədikləri yerlərə başçəkmələrin həyata keçirildiyini, rəftar və saxlanma şəraitinin araşdırıldığını vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər və gələcək əməkdaşlıq perspektivləri barədə də fikir mübadiləsi aparılıb.

# Füzuliyə yeni köçən sakinlərə ilk dəfə mina təhlükəsi ilə bağlı təlim keçirilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) birgə əməkdaşlığı çərçivəsində "Risklər barədə maarifləndirmə və təhlükəsiz davranış" mövzusunda daha bir təlim keçirib.**




Komitədən AZƏRTAC-a bildirilib ki, iyul ayında növbəti dəfə keçirilən təlim Füzuli rayonuna köçürülmüş və dayanıqlı məskunlaşması təmin edilən sakinlər arasında olub. Maarifləndirici təlimlərin keçirilməsində əsas məqsəd İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlərin mina və partlamamış hərbi sursatlarla (PSD) bağlı məlumatlılığının artırılması, mümkün risk amilinin minimuma endirilməsidir.

AzQAC-ın mütəxəssis və könüllülərindən ibarət heyət bu dəfə Füzuli şəhərinə səfər edib. Təlimçilər "Qapı-qapı" sessiyası çərçivəsində mənzillərə gedərək hər bir ailəyə zəruri məlumatlar verib, onların suallarını cavablandırıblar. Təlimlər zamanı qadağanedici, xəbərdaredici və məlumatlandırıcı nişanlar barədə ətraflı məlumatlar verilib, maarifləndirici broşürlər paylanılıb, təhlükə zamanı müraciət edilə biləcək dövlət qurumları və əlaqə vasitələri xatırladılıb.

Xatırladaq ki, ilk mərhələdə təlimlər Bakı şəhərində keçmiş məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Qaradağ rayonundakı "Qobu Park" yaşayış kompleksində ayrı-ayrılıqda vətəndaşlar və məktəbyaşlı şəxslər üçün təşkil olunub. Daha sonra bu proses yataqxana, inzibati bina və yarımtikililərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər üçün davam etdirilib.




Füzuli şəhərində iyul ayı ərzində mina təhlükəsi ilə bağlı maarifləndirmə həftəsində ümumilikdə 500-dən çox şəxs məlumatlandırılıb.

Ümumilikdə mina və PSD təhlükəsi ilə bağlı maarifləndirici təlimlərə indiyədək 20 000-dən çox şəxs cəlb edilib. Təlimlərin keçmiş məcburi köçkünlərin sıx məskunlaşdıqları digər ərazilərdə silsilə şəklində davam etdirilməsi nəzərdə tutulur.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 365** **QƏRAR** **Bakı şəhəri, 30 iyul 2024-cü il**

## "Vergi ödəyicisinin digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə etməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Vergi ödəyicisinin digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə etməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 366** **QƏRAR** **Bakı şəhəri, 30 iyul 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 460; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 may tarixli 291 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"na "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi üzrə" bölməsindən sonra aşağıdakı məzmunda "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi üzrə" bölməsi əlavə edilsin:

| **Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi üzrə** | | | |
|---|---|---|---|
| 1. | ADA Universiteti | fəlsəfə doktoru üzrə | - |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 367** **QƏRAR** **Bakı şəhəri, 30 iyul 2024-cü il**

## "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"nın təsdiq edilməsi haqqında

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1098-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2010-cu il 1 oktyabr tarixli 331 nömrəli və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2011-ci il 24 noyabr tarixli 537 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 aprel tarixli 33 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana), Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına, bələdiyyələrə və nizamnamələrinə əsasən məişət zorakılığının qarşısının alınması sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyətinə dəstək göstərilməsi tövsiyə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 368** **QƏRAR** **Bakı şəhəri, 30 iyul 2024-cü il**

## "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1225 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 371** **QƏRAR** **Bakı şəhəri, 1 avqust 2024-cü il**

## "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçiriləcəyi dövrdə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçiriləcəyi dövrdə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində (xüsusi təhsil müəssisələri istisna olmaqla) təhsilin pillələri üzrə tədris və təlim-tərbiyə prosesinin aşağıdakı qaydada təşkili təmin edilsin:

1.1. ümumi təhsil pilləsi üzrə - 2024-cü il noyabrın 12-dən 22-dək payız tətili;

1.2. peşə, orta ixtisas və ali təhsil pillələri üzrə - Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda 2024-cü il noyabrın 12-dən 22-dək distant (məsafədən) formada təhsil.

2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın 1.1-ci bəndi nəzərə alınmaqla təhsil proqramlarının təhsilalanlar tərəfindən tam mənimsənilməsini təmin etmək məqsədilə müvafiq tədbirlər həyata keçirsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 373** **QƏRAR** **Bakı şəhəri, 1 avqust 2024-cü il**

## "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 9.2-ci maddəsi ilə müəyyən edilmiş vəsaitin bölgüsü və ondan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 9.2-ci maddəsi ilə müəyyən edilmiş vəsaitin bölgüsü və ondan istifadə Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərar 2024-cü il iyulun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 369** **QƏRAR** **Bakı şəhəri, 30 iyul 2024-cü il**

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və "Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 55 nömrəli Qərarının ləğv edilməsi haqqında

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 53 (Cild I) ilə təsdiq edilmiş "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.5-ci bəndin birinci abzasına "döyüşçülərin" sözündən sonra "(şəhid statusu almış şəxslər istisna olmaqla)" sözləri, "(ərləri)" sözündən sonra isə "və övladları" sözləri əlavə edilsin;

1.2. 1.10-cu bəndin birinci abzasına "döyüşçülərin" sözündən sonra "(şəhid statusu almış şəxslər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.3. 1.11-ci bənd ləğv edilsin;

1.4. 1.16-cı bəndin birinci abzasından "ailəsi" sözü çıxarılsın.

2. "Azərbaycan Respublikasında istehsal olunan minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə aksiz dərəcələrinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 may tarixli 85 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 555 (Cild I) adına və 1-ci hissəsinə "avtomobillərinə," sözündən sonra "avtobuslara, motosikletlərə," sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 219 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1354 (Cild I); 2024, № 3, maddə 359) ilə təsdiq edilmiş "Vergi ödəyicisinə verilmiş elektron qaimə-faktura üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları"nın 1.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"1.3. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 175-ci maddəsində başqa hal nəzərdə tutulmadıqda ƏDV tutulan əməliyyatlar üçün malların (işlərin, xidmətlərin) alışı zamanı ödənilmiş ƏDV məbləği əməliyyatın dəyəri alıcının bank və digər ödəniş hesabından həmin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank və digər ödəniş hesabına və ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənildikdə əvəzləşdirilir. Bu bəndin məqsədləri üçün malların (işlərin, xidmətlərin) barter edilməsi, təqdim edilmiş malların (işlərin, xidmətlərin) dəyəri üzrə yaranmış maliyyə öhdəliklərinin qarşılıqlı şəkildə əvəzləşdirilməsi və ya notariusun depozit hesabı vasitəsilə həyata keçirilən əməliyyatlar üzrə əməliyyatın dəyərinin notariusun bankda açdığı depozit hesabına ödənilməsi həmin əməliyyatın ƏDV-siz dəyərinin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank və digər ödəniş hesabına ödənilməsinə bərabər tutulur.".

4. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 iyun tarixli 320 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1.4.5.1.2-ci və 1.1.4.5.2.2-ci yarımmaddələrdə "etil (qida) spirti" sözləri "İçməli spirt" sözləri ilə əvəz edilsin;

4.2. 1.1.4.5.1.3-cü və 1.1.4.5.2.3-cü yarımmaddələrə "Pivə" sözündən sonra "(alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilər" sözləri əlavə edilsin;

4.3. 1.1.4.5.1.5-ci və 1.1.4.5.2.5-ci yarımmaddələrə "məmulatları" sözündən sonra "və onların əvəzediciləri" sözləri əlavə edilsin;

4.4. 1.1.4.5.1.7-ci yarımmaddədə "Alkoqollu energetik" sözləri "Energetik" sözü ilə əvəz edilsin;

4.5. 1.1.4.5.1.8-ci yarımmaddə aşağıdakı redaksiyada verilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 4 | 5 | 1 | 8 | Sair məhsullar |

4.6. 1.1.4.5.1.9-cu yarımmaddə ləğv edilsin;

4.7. 1.1.4.5.2.6-cı yarımmaddəyə "avtomobillərinə" sözündən sonra ", dövlət qeydiyyatına alınmalı olan motosikletlərə" sözləri əlavə edilsin;

4.8. 1.1.4.5.2.7-ci yarımmaddəyə "məmulatlarına" sözündən sonra ", emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza" sözləri əlavə edilsin;

4.9. 1.1.4.5.2.8-ci yarımmaddə aşağıdakı redaksiyada verilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 4 | 5 | 2 | 8 | Energetik içkilər |

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 338 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1445 (Cild I); 2024, № 1, maddə 122, № 2 maddə 200, № 3 maddə 359) ilə təsdiq edilmiş "Nəzarət-kassa aparatlarının istismarı Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.2-ci bənddə (birinci halda), 1.3-cü bənddə və 8.3.1-ci yarımbənddə "qeydiyyatı" sözü "uçotu" sözü ilə əvəz edilsin;

5.2. 1.4.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.4.1. NKA - malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı aparılan pul hesablaşmaları barədə məlumatların toplanması, emal edilməsi, saxlanması və internet vasitəsilə ötürülməsi imkanına malik olan elektron avadanlıq və ya kompüter sistemləri.

NKA-lar aşağıdakı qruplara (kateqoriyalara) bölünür:";

5.3. 1.4.6-cı yarımbənddə "müvafiq qanunvericiliyə əsasən qeydiyyatdan keçirmiş" sözləri "vergi orqanında uçota alınmış" sözləri ilə əvəz edilsin;

5.4. 1.4.7-ci yarımbənddə "qeydiyyatı və qeydiyyatdan çıxarılması" sözləri "vergi orqanında uçota alınması və uçotdan çıxarılması" sözləri ilə əvəz edilsin;

5.5. 7.2.15-ci yarımbənddə "qeydiyyata alındıqda, qeydiyyatdan çıxarıldıqda" sözləri "uçota alındıqda, uçotdan çıxarıldıqda" sözləri ilə əvəz edilsin;

5.6. 7.2.26-cı yarımbənddə "qeydiyyatdan" sözü "uçotdan" sözü ilə əvəz edilsin;

5.7. 7.2.28-ci yarımbənddə "müvafiq qanunvericiliyə əsasən qeydiyyata alınmamış" sözləri "vergi orqanlarında uçota alınmamış" sözləri ilə əvəz edilsin;

5.8. 8.2.1-ci yarımbənddə "vergi orqanları ilə müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilməsi" sözləri "vergi orqanlarında müəyyən edilmiş qaydada uçota alınması" sözləri ilə əvəz edilsin;

5.9. 8.3.6-cı yarımbənddə "qeydiyyata alınmasını və qeydiyyatdan çıxarılmasını sözləri "uçota alınmasını və uçotdan çıxarılmasını" sözləri ilə əvəz edilsin;

5.10. 8.3.7-ci yarımbənddə "vergi orqanlarında qeydiyyatdan keçmiş" sözləri "dövlət reyestrinə daxil edilmiş" sözləri ilə əvəz edilsin;

5.11. 10.1.4-cü yarımbənddə "qeydiyyata" sözü "vergi orqanlarında uçota" sözləri ilə əvəz edilsin;

5.12. 11.2.2-ci yarımbənddə "NKA-nın qeydiyyatının ləğv edilməsi barədə" sözləri "NKA modelinin dövlət reyestrindən çıxarılması barədə" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 191 (Cild I); 2024, № 3, maddə 359) ilə təsdiq edilmiş "Elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1 1.3-cü bəndə "rəsmiləşdirilməsinə" sözündən əvvəl "və ya avans alınmasının" sözləri əlavə edilsin;

6.2. aşağıdakı məzmunda 2.2.12-ci yarımbənd əlavə edilsin:

"2.2.12. alınmış avans ödənişləri barədə (12 nömrəli əlavə).";

6.3. 2.3-cü bənddə "və 2.2.9-cu yarımbəndlərində" sözləri ", 2.2.9-cu və 2.2.12-ci yarımbəndlərində" sözləri ilə əvəz edilsin;

6.4. aşağıdakı məzmunda 2.4.8-ci yarımbənd əlavə edilsin:

"2.4.8. bu Qaydaların 2.2.1-ci və 2.2.5-ci yarımbəndlərində nəzərdə tutulan elektron qaimə-fakturalar tərtib edilərkən bu Qaydaların 2.2.12-ci yarımbəndində nəzərdə tutulan elektron qaimə-faktura (fakturalar) mövcud olduqda həmin elektron qaimə-fakturanın (fakturaların) seriyası, nömrəsi və tarixi.";

6.5. aşağıdakı məzmunda 2.17-3-cü bənd əlavə edilsin:

"2.17-3. Mallar (işlər, xidmətlər) təqdim edilmədən alınmış avans ödənişlərinə görə avansı əldə etmiş vergi ödəyiciləri tərəfindən bu Qaydaların 2.2.12-ci yarımbəndində nəzərdə tutulan elektron qaimə-faktura tərtib edilərək göndərilir. Alınmış avans ödənişlərinə görə mallar (işlər, xidmətlər) təqdim edildikdə bu Qaydaların 2.2.1-ci və ya 2.2.5-ci yarımbəndində nəzərdə tutulan elektron qaimə-faktura tərtib edilərək göndərilir. Bu Qaydaların 2.2.12-ci yarımbəndində nəzərdə tutulan elektron qaimə-fakturanın tərtib edilməsi zamanı bu Qaydaların 2.3.8 - 2.3.26-cı yarımbəndləri üzrə məlumatlar doldurularkən yalnız alınmış avans ödənişləri üzrə təqdim ediləcək mallar, işlər və xidmətlər barədə məlumatlar qeyd edilməlidir.";

6.6. aşağıdakı məzmunda 3.7.11-ci yarımbənd əlavə edilsin:

"3.7.11. alınmış avans ödənişləri üzrə avansın alındığı gün.";

6.7. 1 və 5 nömrəli əlavələr yeni redaksiyada verilsin və yeni məzmunda 12 nömrəli əlavə edilsin (əlavə olunur).

7. "Satışı əlavə dəyər vergisindən azad olunan heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 iyun tarixli 251 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 689 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. adından və 1-ci hissəsindən "heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən" sözləri çıxarılsın;

7.2. 2-ci hissədə "2024-cü" sözləri "2027-ci" sözləri ilə əvəz edilsin;

7.3. həmin Qərarla təsdiq edilmiş "Satışı əlavə dəyər vergisindən azad olunan heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin Siyahısı"nın "II. Yem əlavələri"nin 1-ci və 2-ci hissələrində "Heyvandarlıqda və quşçuluqda yem" sözləri "Yem" sözü ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 311 (Cild I); 2024, № 3, maddə 302) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının və məcburi nişanlamanın hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.1.8-ci yarımbənddə, həmin Qaydalara əlavə - "Aksiz markalarına və məcburi nişanlamaya dair ümumi tələblər"in 6-cı hissəsinin və 6.2-ci bəndinin birinci abzasında, 6.2.1-ci yarımbəndində, 7-ci hissəsinin birinci və ikinci abzaslarında və həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Siyahısı"nın 2.4-cü bəndində "qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları" sözləri "alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar" sözləri ilə əvəz edilsin;

8.2. 6.7-ci bəndə "təsdiq olunması" sözlərindən sonra "(6.7-1-6.7-3-cü bəndlərdə nəzərdə tutulan hallar istisna olmaqla)" sözləri əlavə edilsin;

8.3. aşağıdakı məzmunda 6.7-1-6.7-3-cü bəndlər əlavə edilsin:

"6.7-1. Bu Qaydaların 2.1.5-2.1.9-cu yarımbəndlərində qeyd edilən mallara tətbiq olunan məcburi nişanlanmanın alınması üçün sifarişçi tərəfindən 6.2-ci bəndin tələbləri təmin olunduqda, Xidmət Sistem vasitəsilə aksizi ödəmək vəzifəsi barədə sifarişçiyə 6.7-ci bənd ilə müəyyən olunmuş müraciətə baxılma müddətində məlumat verir.

6.7-2. Qərarın qəbul edilməsi üçün aksiz bu Qaydaların 6.7-1-ci bəndinə uyğun olaraq, Xidmət tərəfindən verilən məlumat alındığı tarixdən 3 (üç) iş günü ərzində sifarişçi tərəfindən ödənilir və ödənişi təsdiq edən sənəd vergi orqanına təqdim olunur.

6.7-3. Bu Qaydaların 2.1.5-2.1.9-cu yarımbəndlərində qeyd edilən mallara tətbiq olunan məcburi nişanlanmanın alınması üçün aksizin ödənilməsi faktını təsdiq edən sənəd Xidmətə təqdim edildikdən sonra markaların alınması üçün sifarişin təsdiq olunması barədə 2 (iki) iş günü müddətində qərar qəbul edilir və Sistem vasitəsilə sifarişçiyə məlumat verilir.";

8.4. 6.8-ci bənddə "və ya 6.5-ci" sözləri ", 6.5-ci və 6.7-1-6.7-3-cü" sözləri ilə əvəz edilsin.

9. "İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 387 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1467 (Cild I); 2024, № 3, maddə 340) aşağıdakı dəyişikliklər edilsin:

9.1. adına və 1-ci hissəsinə "çıxarılması" sözündən sonra ", ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi" sözləri əlavə edilsin;

9.2. həmin Qərarla təsdiq edilmiş "İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması" Qaydası üzrə:

9.2.1. adına və 1.1-ci bəndə "çıxarılması" sözündən sonra ", ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi" sözləri əlavə edilsin.

9.2.2. aşağıdakı məzmunda 1.7-1-ci bənd əlavə edilsin:

"1.7-1. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə görə vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən Vergi Məcəlləsinin 169-cu maddəsi ilə müəyyən edilmiş qaydada qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı və ödənilməlidir.";

9.2.3. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Qeyri-rezidentin ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi

3-1.1. Qeyri-rezidentin Azərbaycan Respublikasında ƏDV məqsədləri üçün qeydiyyatı vergi uçotuna alındığı tarixdən qüvvəyə minir.

3-1.2. Qeyri-rezident Azərbaycan Respublikasında vergi orqanında uçotda olan şəxs kimi fəaliyyətə başladığı tarixdən etibarən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən olunmuş formada platforma üzərindən Vergi Məcəlləsinə uyğun olaraq ƏDV bəyannaməsini təqdim edir və vergini büdcəyə ödəyir.

3-1.3. Təqdim edilmiş bəyannamədə ziddiyyət və ya səhv aşkar edildikdə, Dövlət Vergi Xidməti qeyri-rezidentdən əlavə məlumat, sənəd və izahat tələb edir. Sənədlər, məlumatlar və izahatlar üzrlü səbəb olmadan təqdim edilmədikdə vergi orqanının Vergi Məcəlləsinin 37-ci maddəsinə əsasən vergiləri hesablamaq hüququ vardır.

3-1.4. Qeyri-rezident vergini bu Qaydanın 2.7.9-cu yarımbəndinə uyğun olaraq seçdiyi valyutada ödəyir. Xarici valyuta ilə aparılan ödəniş onun həyata keçirildiyi gün Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi mübadilə məzənnəsi ilə manatla hesablanır.

3-1.5. Azərbaycan Respublikasında vergilərin ödənilməsi ilə bağlı ödənişlərin köçürüləcəyi hesaba dair məlumatlar platformada əks etdirilir.

3-1.6. Vergi Məcəlləsinin 59.1-ci maddəsinə uyğun olaraq, vergi müəyyən edilmiş müddətdə ödənilmədikdə qeyri-rezidentdən ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün ödənilməmiş vergi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur.".

10. "Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 55 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 211 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Növbəti iclas keçirilib

**Avqustun 1-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın iyulun 27-də keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən Mərkəzi Seçki Komissiyasına təyin olunan məşvərətçi səs hüquqlu üzvün təsdiq edilməsinə qərar verilib.

Daha sonra iclasda 23 saylı Nəsimi - Səbail, 69 saylı Biləsuvar və 96 saylı Goranboy - Naftalan seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.



Beynəlxalq müşahidə missiyası və media subyektləri nümayəndələrinin qatıldıqları iclasda qarşıdan gələn seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətə də baxılıb. Seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə və qaydada iclasa çıxarılan müraciət, maraqlı subyektin də iştirakı ilə komissiya üzvləri tərəfindən geniş müzakirə edildikdən sonra müvafiq qərar qəbul olunub.

İclasda həmçinin Milli Məclisə seçkilərə hazırlıq istiqamətində proseslərin qanunvericiliyin tələblərinə uyğun gedişi və komissiya tərəfindən ardıcıl, sistemli şəkildə reallaşdırılan layihələr barədə məlumat verilib, müxtəlif məsələlərə dair statistik göstəricilər diqqətə çatdırılıb, cari məsələlərə baxılıb.

# Milli Məclisə seçkilərdə seçkiqabağı təşviqata dair ümumi tələblər

**Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş fikir və söz azadlığı seçki prosesində konstitusion norma kimi tətbiq olunaraq namizədlərə, namizədləri qeydə alınmış siyasi partiyalara, həmçinin siyasi partiya bloklarına, təşəbbüs qruplarına və digər seçki subyektlərinə öz seçkiqabağı platformalarını bəyan etmək imkanı yaradır. Seçki Məcəlləsində bu imkan seçkiqabağı təşviqat hüququ olaraq müəyyən edilmişdir.**

Qanunvericilik seçki prosesində ən mühüm mərhələlərdən biri kimi seçkiqabağı təşviqat mərhələsini müəyyən etməklə aktiv və passiv seçki hüququ subyektlərinin birbaşa təmasını nəzərdə tutan çox geniş normaları təsbit edir. Nəzərə alsaq ki, ümumiyyətlə seçki texnologiyalarının tətbiqi baxımından seçkiqabağı təşviqat passiv seçki hüququ subyektlərinin öz seçki hüquqlarını reallaşdırması üçün ən mühüm vasitələrdən biridir, onda qanunvericiliyin bu yanaşması tam başa düşüləndir.

Seçkiqabağı təşviqat elə bir mərhələdir ki, yuxarıda da toxunduğumuz kimi, seçkili orqanda təmsil olunmaq istəyən hər bir şəxs qanunla müəyyənləşdirilmiş qaydada öz məqsəd və məramını seçicilər qarşısında məhz bu dövrdə bildirmək imkanı əldə edir. Buna görə də tam məsuliyyəti ilə qeyd etmək olar ki, bu mərhələ seçkinin nəticəsinin müəyyən olunmasında əsaslı rol oynayır. Təsadüfi deyil ki, beynəlxalq seçki praktikasında seçkiqabağı kampaniya seçkinin ümumi mənzərəsini müəyyən edən əsas elementlərdən biri kimi özünü göstərir.

Seçkiqabağı təşviqat hüququnun reallaşdırılmasının ən vacib amili müvafiq təminatların olmasıdır. Bu cür təminatlar təbii ki, dövlət tərəfindən verilə bilər. Belə ki, Seçki Məcəlləsi vətəndaşlar, siyasi partiyalar və təşviqat hüququna malik digər subyektlər tərəfindən seçkiqabağı təşviqatın aparılması üçün geniş imkanlar yaradılmasını təmin edir. Həmçinin seçki qanunvericiliyinə əsasən qeydə alınmış namizədin, habelə namizədi qeydə alınmış siyasi partiyaların və siyasi partiyalar bloklarının seçkiqabağı təşviqat aparılması üçün mediadan bərabər istifadə hüququ tanınır.

Seçki Məcəlləsinin on üçüncü fəsli bütünlüklə seçkiqabağı təşviqata həsr olunub. Məlumdur ki, hər bir prosesdə olduğu kimi, seçkiqabağı təşviqat prosesində də bu hüququn reallaşdırılması aidiyyəti subyektlər tərəfindən həyata keçirilməlidir. Milli Məclisə seçkilərlə əlaqədar bu subyektlərin dairəsinə qeydə alınmış namizədlər, namizədi qeydə alınmış siyasi partiyalar və siyasi partiyaların blokları daxildir.

Bu məqamda haqlı olaraq belə bir sual yaranır: seçkiqabağı təşviqat aparmaq hüququna malik subyektlərin dairəsi müəyyən edildiyi halda, bəs kimlər bu prosesdə iştirak edə bilməzlər?

Seçki Məcəlləsinin 74.4-cü maddəsinə əsasən aşağıdakılara seçkiqabağı təşviqatın aparılması, seçkiqabağı hər hansı təşviqat materiallarının yayılması qadağan edilir:

- xarici dövlətlərə və xarici hüquqi şəxslərə;
- xarici vətəndaşlara;
- vətəndaşlığı olmayan şəxslərə;
- 18 yaşına çatmamış vətəndaşlara;
- seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi günə olan vəziyyətə görə Azərbaycan Respublikasının hüquqi şəxsinin nizamnamə kapitalında xarici dövlətlərin və xarici hüquqi şəxslərin, xarici vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin iştirak (mülkiyyət) payı 30 faizdən çox olarsa, Azərbaycan Respublikasının hüquqi şəxslərinə;
- beynəlxalq təşkilatlara və beynəlxalq ictimai hərəkatlara;
- dövlət hakimiyyəti orqanlarına və bələdiyyə qurumlarına;
- dövlət, bələdiyyə təşkilatlarına və idarələrinə;
- seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi günə olan vəziyyətə görə nizamnamə kapitalında dövlətin və ya bələdiyyənin iştirak payı 30 faizdən artıq olan hüquqi şəxslərə;
- hərbi hissələrə;
- xeyriyyə təşkilatlarına, dini birliklərə, idarələrə və təşkilatlara;
- aşağıdakı məlumatlardan hər hansı birini göstərməyən anonim ianə köçürənlərə (vətəndaş üçün - soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədinin seriyasını, nömrəsini, verilmə tarixini, yaşayış yerinin ünvanını, doğum tarixini, hüquqi şəxs üçün - vergi ödəyicisinin eyniləşdirmə nömrəsini, adını, qeydiyyat tarixini, bank rekvizitlərini, nizamnamə kapitalında dövlət və ya bələdiyyə payının olmasını, olduğu halda miqdarını, nizamnamə kapitalında xarici kapitalın pay miqdarını göstərməyənlərə və ya qeyri-düzgün göstərənlərə).

Seçkiqabağı təşviqatda ən vacib məsələ bu prosesin necə və hansı qaydada həyata keçirilməsidir. Müasir seçki texnologiyaları baxımından yanaşsaq, demək olar ki, təşviqatın üsul və qaydaları ayrı-ayrı ölkələrin qanunvericilik sistemində fərqli normalaşdırılsa da, prinsip etibarı ilə oxşardırlar. Azərbaycanın seçki qanunvericiliyi bu üsulları belə müəyyən edir:

- Media vasitəsilə;
- Kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və s.) keçirilməsi yolu ilə;
- Çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə;
- Qanunla qadağan edilməyən digər üsullarla.

Media vasitəsilə seçkiqabağı təşviqat açıq müzakirələr,



"dəyirmi masa"lar, mətbuat konfransları, müsahibələr, çıxışlar, televiziya və radio proqramları, videofilmlər formasında və qanunla qadağan edilməyən digər formalarda həyata keçirilir.

Media vasitəsi ilə seçkiqabağı təşviqat ödənişsiz və ödənişli əsaslarla aparılır. Seçki Məcəlləsinin 77.1-ci maddəsinə əsasən, ictimai televiziya və radio yayımçıları və ya redaksiyalarının təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olan, həmçinin dövlət büdcəsindən maliyyələşən dövri nəşrlər qeydə alınmış namizədlərə, siyasi partiyalara və siyasi partiyaların bloklarına seçkiqabağı proqramlarını təbliğ etməkdən ötrü dövlət hakimiyyəti orqanlarının ayırdığı vəsait hesabına bərabər şərait yaradırlar.

Televiziya və radioda pulsuz efir vaxtı almaq hüququna ölkənin bütün ərazisinə yayımlanan televiziya və radio yayımçılarının kanallarında yalnız birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiya blokları, respublika ərazisinin yarısından az hissəsində proqramları yayımlanan televiziya və radio yayımçılarının bölmələrində isə müvafiq deputatlığa qeydə alınmış namizədlər malikdirlər.

Ödənişli əsaslarla seçkiqabağı təşviqat müvafiq seçki subyektləri tərəfindən həm ödənişsiz efir vaxtı vermək vəzifəsi müəyyən edilmiş televiziya və radio yayımçıları, həm də özəl audiovizual media subyektləri vasitəsi ilə aparıla bilər. Ödənişli əsaslarla seçkiqabağı təşviqata qoşulmaq niyyətində olan müvafiq media subyektləri tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə seçki komissiyasına müraciət olunur, həmin müraciətlər ictimailəşdirilərək təşviqat subyektlərinin diqqətinə çatdırılır. Sözügedən media subyektləri tərəfindən bütün namizədlər üçün eyni əsaslarla bərabər şəraitin yaradılması prinsipinə əməl olunmalıdır.

Ödənişli efir vaxtı tərəflər arasında bağlanan müqaviləyə əsasən verilir. Müqavilədə aşağıdakılar nəzərdə tutulmalıdır:

1. seçkiqabağı təşviqatın forması;
2. efirə çıxma vaxtı və tarixi;
3. verilən efir vaxtının müddəti, onun ödənilməsi qaydası və ödənişin həcmi.

Aparıcı jurnalistin televiziya və radio proqramları prosesində iştirakı forması və şərhləri qeyd olunmaqla müqavilə şərtləri yerinə yetirildikdən sonra həmin proqramların cədvəli, proqramın adı və efirəçıxma vaxtı göstərilməklə, efir vaxtından istifadə edildiyi barədə akt bağlanır. Daha sonra ödəmə tapşırığına əsasən efir vaxtının dəyəri qanunla müəyyən olunmuş qaydada və vaxtda ödənilir. Qanunda efir vaxtı dəyərinin ödənişi qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondu vəsaitləri hesabına həyata keçirilməsi nəzərdə tutulduğundan, bu tələbə də müvafiq subyektlər tərəfindən əməl olunmalıdır. Seçki Məcəlləsinə əsasən, tərəflər bağlanmış müqavilənin şərtlərini pozduqda, həmçinin Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara əməl etmədikdə efir vaxtının verilməsi haqqında müqavilənin ləğv edilməsi üçün əsas yaranır. Lakin qanun qərərsizlik prinsipini əsas tutaraq göstərilən müqavilənin yalnız məhkəmə qaydasında ləğvini müəyyən edir.

Məhkəmənin müqavilənin ləğv edilməsi barədə qanuni qüvvəyə minmiş qərarı olduqdan sonra sərbəstləşmiş efir vaxtından seçkiqabağı təşviqat məqsədləri üçün istifadə etmək aidiyyəti subyektlərə qadağan edilir.

Seçki Məcəlləsi televiziya və radioda seçkiqabağı təşviqat materiallarının verilməsinə dair bir sıra tələblər müəyyən etmişdir. Bu da passiv seçki hüququ subyektlərinin seçkiqabağı təşviqat hüququndan istifadəsinin maneəsiz həyata keçirilməsini nəzərdə tutur.

Məcəllənin 82.1-ci maddəsində göstərilir ki, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun təşviqat materiallarının verilməsini malların, işlərin və xidmətlərin reklamları ilə və ya digər proqramların verilməsi ilə dayandırmaq qadağandır.

Seçkiqabağı təşviqat hüququnun daha etibarlı təminatı baxımından televiziya və radioda seçkiqabağı təşviqat materialları verilərkən müddətlər elə optimal seçilməlidir ki, auditoriyanın həmin məlumatları əldə etmək imkanları daha asan olsun. Bu baxımdan, Seçki Məcəlləsi konkret göstərilən hala dair norma müəyyən edir. Belə ki, Məcəllənin 82.3-cü maddəsinə əsasən, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının tədbirlərinin keçirilməsi haqqında məlumatlar bir qayda olaraq televiziya və radio proqramlarında məlumatların şərhsiz göstərildiyi proqramların başlanğıcında verilməlidir. Belə məlumatlara sərf edilən efir vaxtının dəyərini aidiyyəti subyektlər ödəmirlər.

Biz seçkiqabağı təşviqatın media vasitəsi ilə aparılması mövzusuna toxunarkən dövri nəşrlərin də bu prosesdə iştirakını qeyd etmişdik. Dövri nəşrlərdə də televiziya və radioda olduğu kimi seçkiqabağı təşviqat ödənişli və ödənişsiz əsaslarla aparılır. Seçki Məcəlləsinin 83-cü maddəsi dövri nəşrlər vasitəsi ilə seçkiqabağı təşviqatın pulsuz əsaslarla aparılması şərtlərini müəyyən edir. Milli Məclisə seçkilərdə birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının redaksiyalarının təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olan və ya dövlət büdcəsindən maliyyələşən, həftədə azı bir dəfə çıxan dövri nəşrlərdə pulsuz dərc üçün müvafiq yer almaq hüquqları vardır. Digər tərəfdən, namizədlərin seçkiqabağı təşviqat hüquqlarının daha etibarlı təminatı üçün Seçki Məcəlləsi həmçinin regional qaydada fəaliyyət göstərən, qanunun müvafiq tələbinə cavab verən dövri nəşrlərdə də pulsuz seçkiqabağı təşviqat imkanını təsbit edir.

Dövri nəşrlər vasitəsi ilə seçkiqabağı təşviqatın ödənişli əsaslarla aparılması şərtləri Seçki Məcəlləsinin 84-cü maddəsi ilə tənzimlənir. Televiziya və radioda olduğu kimi, dövri nəşrlərdə də ödənişli əsaslarla seçkiqabağı təşviqat qanunda həm ödənişsiz əsaslarla seçkiqabağı təşviqata yer ayırmaq vəzifəsi müəyyən edilmiş media subyektlərində, həm də digər dövri nəşrlərdə aparılır. Lakin Seçki Məcəlləsinin 84.1-ci maddəsinə əsasən qanunla ödənişsiz əsaslarla seçkiqabağı təşviqata yer ayrılması müvafiq media subyektlərinə münasibətdə vəzifə kimi müəyyən edilir.

Digər əsaslarla fəaliyyət göstərən dövri nəşrlərdə seçkiqabağı təşviqat tərəflər arasında qanunla müəyyən olunmuş qaydalarla bağlanan müqavilə əsasında həyata keçirilir.

Yuxarıda seçkiqabağı təşviqatın üsullarından bəhs edərkən kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılmasını qeyd etmişdik. Ayrı-ayrı seçki sistemlərində bu üsul da öz populyarlığı ilə seçilir. Seçki Məcəlləsinin 86-cı maddəsi belə üsulla seçkiqabağı təşviqatın aparılmasına dair hüquq münasibətlərini tənzimləyir. Seçki komissiyaları aidiyyəti subyektlərə seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün bərabər şərait yaradırlar.

Kütləvi tədbirlər keçirmək üçün müvafiq subyektlərə qanunla müəyyən olunmuş yerlərin ayrılması ilə yanaşı, tərəflər arasında bağlanmış müqavilə əsasında da yerlər əldə etmək Seçki Məcəlləsində nəzərdə tutulmuşdur.

Seçki qanunvericiliyi, həmçinin başqa bir üsul olaraq çap, audiovizual və digər seçkiqabağı təşviqat materiallarının buraxılışı və yayımlanmasını da müəyyən edir.

Ölkəmizdə keçirilən seçkilərdə bu üsula da seçki subyektləri tərəfindən önəm verilir. Müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumları dairə seçki komissiyalarının təklifi ilə səsvermə gününə azı 30 gün qalmış hər bir seçki məntəqəsinin ərazisində seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün yer müəyyənləşdirirlər. Bu üsulu da müvafiq ödənişli əsaslarla həyata keçirmək mümkündür.

Seçkiqabağı təşviqata dair ümumi tələblərdən danışarkən hüquqlarla yanaşı, vəzifələri də qeyd etmək yerinə düşərdi. Belə ki, Seçki Məcəlləsinin 88-ci maddəsinə əsasən seçkiqabağı təşviqat aparılarkən sui-istifadə hallarına yol verilməsi qadağandır. Qanunla bu cür hallara yol verilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və Mülki Məcəlləsinə uyğun olaraq məsuliyyət yaradır.

Seçkiqabağı təşviqat aparılarkən mediadan sosial, irqi, milli, dini, nifrət və düşmənçilik yaradan, əqli mülkiyyət haqqında qanunvericiliyi pozan, seçiciləri qeyri-qanuni üsullarla ələ alan təşviqat aparılması qadağan edilmişdir.

Sonda qeyd etmək lazımdır ki, mövzunun əvvəlində də vurğulandığı kimi, seçkiqabağı təşviqat prosesi həm tərəflərin təması, həm də seçki hüququnun azad və ədalətli təminatı baxımından mühüm əhəmiyyət kəsb edir.

***Qabil ORUCOV,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



QƏRAR № 25/112

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 27 iyul tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 27 iyul tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**

**Katib Arifə Muxtarova**

**Katib Mikayıl Rəhimov**

*01.08.2024*

QƏRAR № 25/115

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 29 iyul 2024-cü il tarixli 04 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 89 saylı İsmayıllı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Şəfaqətov Rüstəm Şahvələd oğlu 2024-cü il iyulun 29-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək, səlahiyyətli nümayəndəsi tərəfindən namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi üçün müvafiq seçki sənədlərinin 25 iyul 2024-cü ildə təqdim olunduğunu, ancaq dairə seçki komissiyası tərəfindən sənədlərin qəbul edilməsinə dair arayışın 29 iyul 2024-cü il tarixdə verildiyini iddia edərək, namizədliyin qeydə alınması üçün müəyyən edilmiş müddətin başa çatmaq üzrə olduğunu nəzərə alaraq namizədliyinin təsdiq edilməsini və imza toplanılması üçün imza vərəqələrinin ona tez verilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələbinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Araşdırma ilə səlahiyyətli nümayəndə tərəfindən R.Ş.Şəfaqətovun namizədliyinin irəli sürülməsi üçün seçki sənədlərinin dairə seçki komissiyasına 29 iyul 2024-cü il tarixində təqdim edilməsi müəyyən olunmuşdur.

Seçki Məcəlləsinin 53.6-cı maddəsinə əsasən müvafiq seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır və namizədə, onun səlahiyyətli nümayəndəsinə namizədliyin müvafiq seçki dairələri üzrə irəli sürülməsini təsdiq edən qərarı, həmçinin seçicilərin imzalarının toplanması üçün imza vərəqələrini təqdim edir.

Mərkəzi Seçki Komissiyası 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə namizədlərin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin dairə seçki komissiyasına təqdim edilməsi müddətinin Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən başa çatmaq üzrə olduğunu nəzərə alaraq R.Ş.Şəfaqətovun müraciətinin təmin edilməsini, təqdim olunmuş seçki sənədləri Seçki Məcəlləsinin tələblərinə uyğun olduğu təqdirdə onun namizədliyinin irəli sürülməsinin təsdiq edilərək ona qısa müddətdə imza vərəqələrinin verilməsinin 89 saylı İsmayıllı seçki dairəsinin dairə seçki komissiyasına həvalə olunmasını mümkün hesab edir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 53-cü, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 89 saylı İsmayıllı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Rüstəm Şahvələd oğlu Şəfaqətovun 29 iyul 2024-cü il tarixli 04 saylı müraciəti təmin edilsin, təqdim edilmiş seçki sənədləri Seçki Məcəlləsinin tələblərinə uyğun olduğu tədqirdə gecikdirilmədən onun namizədliyinin təsdiq edilməsi məsələsinə baxılması və ona imza vərəqələrinin verilməsi həmin seçki dairəsinin dairə seçki komissiyasına həvalə edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**

**Katib Arifə Muxtarova**

**Katib Mikayıl Rəhimov**

*01.08.2024*

QƏRAR № 25/113

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyasının məşvərətçi səs hüquqlu üzvünün təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən Məhəmməd Yusif oğlu Məhərrəmov Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) məşvərətçi səs hüquqlu üzv təyin edilmiş və onun üzvlüyünün təsdiq edilməsi üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, M.Y.Məhərrəmovun məşvərətçi səs hüquqlu üzv kimi təsdiq edilməsi üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 148.6-cı maddəsinə görə birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalar hər bir seçki komissiyasının tərkibinə bir məşvərətçi səs hüquqlu üzv təyin edə bilərlər.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 21.1-ci, 21.3-cü, 28.2-ci, 28.4-cü və 148.6-cı maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Məhəmməd Yusif oğlu Məhərrəmov Mərkəzi Seçki Komissiyasında Yeni Azərbaycan Partiyasının məşvərətçi səs hüquqlu üzvü kimi təsdiq edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**

**Katib Arifə Muxtarova**

**Katib Mikayıl Rəhimov**

*01.08.2024*

QƏRAR № 25/114

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü, 30-cu və 169-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. 69 saylı Biləsuvar seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü Zaur Ədalət oğlu Ədalətlinin və 96 saylı Goranboy - Naftalan seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü Siyavuş Sevindik oğlu Həziquliyevin səlahiyyətlərinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin yekunları müəyyən edilənədək müvəqqəti xitam verilsin.

2. Məmməd Rafiq oğlu Daşdəmirli 23 saylı Nəsimi - Səbail seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.

3. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin yekunları müəyyən edilənədək Qurbanxan Ajan oğlu Abışov 69 saylı Biləsuvar, Tural Rafiq oğlu Namazov 96 saylı Goranboy - Naftalan seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

4. Qumru Nadir qızı Mehtiyeva 23 saylı Nəsimi - Səbail seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

**Sədr Məzahir Pənahov**

**Katib Arifə Muxtarova**

**Katib Mikayıl Rəhimov**

*01.08.2024*

# Sənayeləşmə prosesi bölgələrdə də uğurla gedir

**İqtisadiyyat bütün dövlətlərin inkişafının özəyini təşkil edir. İqtisadiyyatı zəif olan bir dövləti heç zaman güclü hesab etmək olmaz. Güclü dövlətin tərəqqisi bilavasitə onun iqtisadi qüdrətindən asılıdır. Azərbaycanda iqtisadi inkişaf üçün bütün imkanlar mövcuddur, üstəlik də, bu irəliləyiş özünəməxsus metodu ilə fərqlənir.**

Danılmaz faktdır ki, regionların inkişafının məhz iqtisadi artımda rolu böyükdür. Demək olar ki, rayonlarda güclü iqtisadi potensial mövcuddur və bu məsələ hər zaman diqqət mərkəzindədir. Qeyd edək ki, Prezident İlham Əliyevin müasir dünya çağırışlarını nəzərə alaraq müəyyənləşdirdiyi Azərbaycanın qarşıdakı illərdə yeni inkişaf perspektivləri sırasında müasir sənaye quruculuğu əsas yer tutur. Dövlət başçısı innovativ, elmtutumlu, müasir texnologiyalara əsaslanan sənaye quruculuğunu Azərbaycanın gələcək inkişaf hədəflərindən biri kimi müəyyənləşdirib. Müasirləşən, daim inkişaf edən rayon mərkəzləri, kənd və qəsəbələr hər kəsin gözü önündə böyüyür, gözəlləşir.

Bəli, bugünkü Azərbaycanın reallıqları fonunda regionların sosial-iqtisadi inkişafı xüsusi yer tutur. Gözəl ölkəmizi kəndbəkənd dolaşdıqca bu mənzərənin daha yaxından şahidi olur insan. Çəkilən yeni yollar, tikilən evlər, müxtəlif təyinatlı obyektlər, infrastruktur layihələri, o cümlədən qaz, su, işıq xətləri və daha nələr-nələr kənd və qəsəbələrin simasını dəyişməklə yanaşı, insanların həyat şəraitini daha da yaxşılaşdırır, ölkəmizin dəyərlərinə yeni dəyərlər qatır. Bu inkişafın mərkəzində isə sənayeləşmə prosesi dayanır.

Bölgələrdə açılan müasir sənaye müəssisələri ölkənin iqtisadi potensialının artmasında, yerlərdə əhalinin məşğulluğunun təmin olunmasında mühüm rol oynayır. İnnovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin, həmçinin qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, əhalinin məşğulluğunu artırmaq məqsədilə sənaye parkları və məhəllələri yaradılıb. Neftçala, Masallı, Sabirabad, Hacıqabul və Şərurda sənaye məhəllələri xeyli vaxtdır ki, sahibkarların istifadəsindədir. Sənaye məhəllələrində çalışmaq istəyən rezidentlərin sayının sürətlə artması dövlətin bu istiqamətdə atdığı addımların hədər getməməsindən xəbər verir. Həmin addımların sayı isə az deyil. Sənaye zonalarında bütün infrastrukturun, kommunikasiyaların yaradılması, ofis binalarının tikintisi dövlət hesabına həll olunur. Prezident İlham Əliyev əksər çıxışlarında qeyri-neft sektorunun inkişaf perspektivləri, regionlarda sənayenin inkişafı haqqında fikirlər səsləndirib və onun önəmini vurğulayıb: "Bizim iqtisadi inkişafımız bundan sonra da qeyri-neft sektoru hesabına davam etdirilməlidir. Buna nail olmaq üçün son illər böyük işlər görülüb, sənaye zonaları yaradılıb, orada xüsusi vergi rejimi tətbiq olunub. Aqroparklar yaradılıb və orada da məhsuldarlıq daha yüksəkdir".

Dünya təcrübəsi göstərir ki, sənaye məhəllələrinin və aqroparkların yaradılması rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Aqroparkların yaradılması həm də kəndlərdə yaşayan əhalinin sosial vəziyyətinin yaxşılaşmasına xidmət edir. Sənaye məhəllələrində və aqroparklarda fəaliyyət göstərən sahibkarların fəaliyyətinin stimullaşdırılması üçün genişmiqyaslı vergi güzəştləri mövcuddur. Sahibkarlığın inkişaf etdirilməsi regionların vergi potensialının artmasına səbəb olduğu kimi, vergi güzəştləri də sahibkarlığın inkişafını stimullaşdırır və iqtisadi risklərin minimuma endirilməsini təmin edir.

Regionlarda sənayedə istehsal olunan məhsullar cəmiyyətin inkişaf etdirilməsində mühüm rol oynayır. Əgər sənaye obyekti ərazi baxımından düzgün və səmərəli yerləşdirilibsə, o, istehsalatın dinamizmi və səmərəliliyinin artırılmasını da təmin edir. Bu, həm də əməyə qənaət edilməsini, əmək ehtiyatları və digər imkanlardan məqsədəuyğun şəkildə istifadə edilməsi yolu ilə bir regionun kompleks şəkildə səmərəli inkişafına yol açır. Əhalinin maddi rifah vəziyyətinin yüksəldilməsi öz növbəsində şəhər və kənd, zehni əmək və fiziki əmək, habelə mədəni-məişət xidmət səviyyəsinə görə rayonlararası fərqlərin aradan qaldırılmasında əhəmiyyətli yer tutur.

Bu gün regionlarda yaradılan sənaye müəssisələrində daxili bazarda böyük tələbat duyulan, həmçinin ixrac potensialı yüksək olan məhsullar istehsal edilir. Götürək elə Ağdam Sənaye Parkını. Məlumat üçün bildirək ki, bu sənaye parkı işğaldan azad edilmiş ərazilərin bərpası, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dirçəldilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil ediməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə 2021-ci ildə yaradılıb. Sənaye Parkının 19 rezidenti, 6 qeyri-rezidenti var. Həmin rezidentlərdən birində - "Eel Electric" MMC-nin elektrik paylayıcı avadanlıqların və elektrik yuvalarının istehsalı müəssisəsində görülən işlərin artıq 85 faizi yekunlaşıb. İqtisadiyyat Nazirliyinin məlumatına görə, şirkətdə elektrikli avtomobillər üçün şarj cihazları istehsal ediləcək. Bu, Azərbaycanda bir ilkdir. Artıq Türkiyədən və Avropanın qabaqcıl ölkələrindən avadanlıqlar gətirilib, yaxın vaxtlarda onların quraşdırılmasına başlanılacaq. Müəssisədə 35-10 kV daxili və xarici tip paylayıcı qurğular, 0,4 kV güc və idarəetmə panelləri, kondensator qurğuları, müxtəlif güclərdə transformator məntəqələrin istehsalı həyata keçiriləcək. Qeyd edək ki, Ağdam Sənaye Parkının 1,7 hektar ərazisində inşa edilən müəssisədə 70 nəfər daimi işlə təmin ediləcək. İstehsal olunan məhsulların əsasən Qarabağda aparılan tikinti-quraşdırma işlərində geniş istifadə edilməsi planlaşdırılır.

Regionlarda iqtisadiyyatın dinamik inkişafı üçün onun dayanıqlı olması və şaxələndirilməsi zəruridir. İstər işğaldan azad edilmiş ərazilərdə, istərsə də digər regionlarda uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi və şaxələndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi təmin olunmalıdır. Görülən işlərin müsbət nəticəsi deməyə əsas verir ki, bu gün həmin təminat bütün ölkəboyu - paytaxt Bakıdan tutmuş regionlara qədər əhatə edilib.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***



# Milli Məclisə seçkilərə 30 gün qaldı

# Parlament seçkiləri Azərbaycanın növbəti uğuru olacaq

**"Azərbaycan Respublikasının Konstitusiyasının 7-ci maddəsinə əsasən, Azərbaycan hüquqi dövlətdir və hüquqi dövlətin təməl prinsiplərinə uyğun olaraq hakimiyyətlərin bölünməsi prinsipləri əsasında dövlət hakimiyyəti təşkil edilir. Cari bölgü ilə qanunverici hakimiyyəti Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir. Bu mənada, parlament seçkiləri Azərbaycan üçün prinsipial əhəmiyyətə malikdir və bu prosesin uğurla reallaşması əsas hədəflərdən biridir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, konstitusiya, Seçki Məcəlləsi və digər aidiyyəti qanunvericilik aktlarına əsasən, vətəndaşlar seçkilərdə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə iştirak edirlər. Sentyabrın 1-nə təyin olunmuş növbədənkənar parlament seçkilərinin də məhz bu hüquqi mühitdə şəffaf, demokratik şəraitdə və seçki qanunvericiliyi ilə müəyyən edilmiş prinsiplərə uyğun formada keçirilməsi ölkəmiz üçün prinsipial əhəmiyyət daşıyır. Daha dəqiq desək, konstitusiyanın 56 və 83-cü maddələri ilə təsbit olunmuş seçmək və seçilmək hüququnun effektiv realizəsi üçün qanunvericiliklə mövcud olan bütün institutlar səfərbər edilir. "İlk növbədə, bütün tədbirlər görülüb ki, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq, bütün vətəndaşların seçmək, seçilmək hüquqlarına təminat verilsin. Vətəndaşlar hər bir səsin eyni hüquqi qüvvəyə malik olduğunu və istədiyi namizədin lehinə və ya əleyhinə şəxsən səs verə biləcəyini dərk edərək seçkilərdə bərabər əsaslarla iştirakının tam fərqindədirlər. Ötən dövrün təcrübəsində də seçkilər zamanı səsvermənin gizliliyinin tam təmin edilməsi seçicilərin iradəsinin ifadəsi üzərində hər cür nəzarəti istisna edir", - deyə o əlavə edib.

B.Məhərrəmov deyib ki, hər hansı pozuntuya şərait yaradılmasına görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində məsuliyyətin nəzərdə tutulduğu barədə məlumatlandırma yüksək səviyyədə həyata keçirilib. Məhz bu çərçivədə növbədənkənar parlament seçkilərinin izlənilməsi, daha konkret desək, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermənin keçirilməsi barədə məlumatların yığılması, bu məlumatların qiymətləndirilməsi əsasında ekspert rəyinin hazırlanması, habelə ötən dövrün təcrübəsi əsasında prosesin daha obyektiv və şəffaf təşkili məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən 7 beynəlxalq təşkilata, Milli Məclis tərəfindən isə 13 beynəlxalq təsisata rəsmi dəvət göndərilib. O cümlədən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının təhlükəsizliyin "insan" ölçüsü ilə məşğul olan əsas institutu, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu da seçkiləri müşahidə etmək üçün Azərbaycana gəlib. Bir qayda olaraq, sərt mövqeyi ilə seçilən bu təsisatın dəvət olunması bir daha onu göstərir ki, Azərbaycan növbədənkənar parlament seçkilərinin şəffaf, demokratik şəraitdə və seçki qanunvericiliyi ilə müəyyən edilmiş prinsiplərə uyğun formada keçirilməsində maraqlıdır: "Biz beynəlxalq təsisatların, o cümlədən, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun ölkədə seçkilərin hazırlanması və keçirilməsi, səslərin hesablanması, səsvermənin yekunlarının, seçkilərin nəticələrinin müəyyən edilməsinin açıq və aşkar şəkildə həyata keçirilməsinə şahidlik etməsini arzulayırıq".

Deputat vurğulayıb ki, Azərbaycan dövlətinin bu prosesin gedişini hər hansı formada gizlətmək və ya üzərini pərdələmək niyyətində olduğu məqamlar yoxdur: "Möhtərəm Prezidentin iradəsi və ümumilikdə qanunvericiliyin imperativ tələbi o yöndədir ki, vətəndaşların seçkilərdə iştirakının azad və könüllü xarakteri tam təmin olunsun. Yəni bu gün əminliklə deyə bilərik ki, elə bir seçkiöncəsi mühit formalaşıb ki, seçkilərdə iştirakla bağlı heç kəs vətəndaşlarımıza təzyiq göstərmək imkanına malik deyil və heç kəs seçicilərin öz iradəsini azad ifadə etməsinə mane ola bilməz. Bu çərçivədə qanunvericiliyin tələbinə müvafiq olaraq seçkilərin hazırlanması və keçirilməsi, səslərin hesablanması, səsvermənin yekunlarının, növbədənkənar parlament seçkisinin nəticələrinin müəyyən edilməsi, açıq və aşkar həyata keçirilməsi qarşısında de-yure və de-fakto əngəl mövcud deyil".

Deputatın fikrincə, hər kəs əmin ola bilər ki, proses mətbuat azadlığına hörmət, eyni zamanda öz peşə fəaliyyəti ilə məşğul olan media subyektlərinin nümayəndələrinin işinə mane olunmaması, namizədlərin, partiyaların, siyasi partiya bloklarının kampaniyalarına müdaxilə edilməməsi, onun pozulmaması şəraitində keçiriləcək. Bu istiqamətdə hər hansı pozuntuya yol verilməməsi üçün müvafiq resurslar və imkanlar səfərbər ediləcək: "Arzu edirik ki, seçkiləri müşahidə məqsədilə gələn beynəlxalq təsisatlar seçki öncəsi prosesi və seçkiləri obyektiv, qərəzsiz formada təhlil edəcək, yekun hesabatları bura gəlməzdən öncə hazırladıqları hansısa qərəzli rəyə deyil, real müşahidələrinin nəticələrinə əsaslanacaq".

Müsahibimiz qeyd edib ki, Azərbaycan dövləti bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında məsuliyyətini anlayaraq seçkilərə xalqın özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirməsi, vətəndaşların konstitusion hüququnun realizəsi kimi baxır. Konstitusiyanın ilk maddəsində də ifadə olunduğu kimi, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Dövlət məhz bu prizmadan seçki prosesinin qanunvericiliyə və beynəlxalq standartlara uyğun formada baş tutmasına ilk növbədə xalqın iradəsinin ifadəsinin təminində ehtiva olunan ümummilli məsələ kimi yanaşır. Sosial-siyasi aspektdən yanaşdıqda isə Azərbaycanın Vətən müharibəsindəki qələbəsi və işğala, separatizmə son qoyması ilə regionda tamamilə yeni geosiyasi reallıq yaranıb, ölkəmiz üçün yeni inkişaf mərhələsinin əsası qoyulub. Siyasi sistemin yeni dövrə uyğunlaşdırılması üçün artıq çox ciddi proseslərə start verilib, Prezidentin iradəsi ilə növbədənkənar prezident seçkiləri keçirilib, hazırda isə Azərbaycan xalqı parlament seçkilərinə hazırlaşır.

O bildirib ki, budəfəki parlament seçkiləri Azərbaycan tarixində bir ilkdir: "Məlumdur ki, Ermənistan və havadarlarının 30 ilə yaxın işğal altında saxlaması səbəbilə Qarabağ və Şərqi Zəngəzurun həmin bölgələrində fiziki olaraq seçkilər baş tutmamışdı. Bu il isə ilk dəfə olaraq Azərbaycan vətəndaşları bütün ölkə ərazisində, o cümlədən Qarabağ və Şərqi Zəngəzurun hər bir istiqamətində aktiv və passiv seçki hüququndan istifadə edəcəklər, Xankəndi, Şuşa, Laçın, Zəngilan və Füzulidə seçki məntəqələri qurulacaq. Qeyd olunanlara əsaslanaraq əminliklə demək olar ki, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri həm də Azərbaycan dövlətinin qüdrətinin, suveren gücünün təntənəsi olacaq və bu amil də prosesin əhəmiyyətinə əlavə önəm qatır".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Seçkilərin demokratik və şəffaf keçirilməsi üçün bütün zəruri tədbirlər görülür

**30 ildən çoxdur ki, Azərbaycan cəmiyyətində ədalətli, şəffaf, demokratik seçki ənənələri yaranıb, seçici mədəniyyəti formalaşıb. Ölkə vətəndaşları cəmiyyətin və dövlətin həyatında yaxından iştirak etmək, dövlət orqanlarına seçmək və seçilmək hüququndan geniş şəkildə istifadə imkanına malikdirlər. Seçkilər mövcud qanunvericiliyə, Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təşkil edilir və keçirilir. Bütün namizədlər üçün heç kimə fərq qoyulmadan əlverişli şərait yaradılır, demokratik prinsiplərə uyğun olaraq ədalətli mövqe nümayiş etdirilir.**



Azərbaycan Prezidenti İlham Əliyevin gələcəyə hesablanmış uğurlu siyasəti sayəsində müstəqil, suveren ölkəmiz bu gün dünyada qalib, güclü, nüfuzlu, demokratik prinsiplər əsasında inkişaf edən dövlət kimi tanınır. Bundan hər birimiz qürur duyur, iftixar hissləri keçiririk. Bir qayda olaraq ölkəmizdə seçkilər demokratik prinsiplər əsasında keçirilir. Seçicilərin səs vermələri üçün bütün məntəqələrdə əlverişli şərait yaradılır. Seçicilər seçdikləri namizədə sərbəst şəkildə səs verirlər.

Məlum olduğu kimi, ölkəmiz növbədənkənar parlament seçkilərinə hazırlaşır. Prezident İlham Əliyevin sərəncamı ilə parlament seçkiləri sentyabrın 1-nə təyin olunub. Parlament seçkilərinə hazırlıq işləri çox ciddi və qanunvericiliyə uyğun şəkildə davam edir. Deputat mandatı qazanmaq uğrunda mübarizə gündən-günə güclənir. Bütün hazırlıq işləri Mərkəzi Seçki Komissiyasının "Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"na uyğun olaraq aparılır. Həmişə olduğu kimi sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinin beynəlxalq standartlara uyğun ədalətli, obyektiv və şəffaf keçirilməsi üçün bütün zəruri tədbirlər görülür.

Seçki Məcəlləsinə əsasən, irəli sürülmüş namizədlərin qeydə alınması üçün namizəd və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18:00-dək müvafiq seçki komissiyasına irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan vərəqələri, seçici imzaları toplanmasının yekunu haqqında Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada tərtib edilmiş protokolun 2 nüsxəsini, Məcəllənin 53.3-cü və 54.8-ci maddələrinə uyğun olaraq namizəd haqqında təqdim edilmiş məlumatlarda dəyişikliklər barədə bildirişi, namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumatı, mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat və namizədin ilkin maliyyə hesabatını (seçici imzaları toplanmasının təşkilinə sərf edilən vəsait haqqında məlumatlar göstərilməklə) təqdim etməlidir.

Ötən hər gün xalqımızı ölkəmizin həyatında çox mühüm əhəmiyyət daşıyan növbədənkənar parlament seçkilərinə yaxınlaşdırır. Sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri xüsusi əhəmiyyəti ilə seçilir - bu seçki müstəqillik tariximizdə ilk dəfə olaraq ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş Azərbaycanda keçiriləcək. Bu, olduqca qürurverici və iftixar duyulası haldır. Müasir Azərbaycanın öz müstəqilliyinin bərpasının 33-cü ildönümünü qeyd etdiyimiz bu il ölkəmiz öz suveren hüquqlarını və ərazi bütövlüyünü tam təmin etmişdir.

MSK sədrinin müavini Rövzət Qasımov seçkilərin keçirilməsi ilə bağlı bildirib ki, işğaldan azad olunmuş ərazilərdə 8 əlavə seçki məntəqəsinin yaradılması qərara alınıb. Növbədənkənar parlament seçkilərində 34 daimi seçki məntəqəsi fəaliyyət göstərəcək. R.Qasımovun sözlərinə görə, azad olunmuş ərazilərdə müvəqqəti seçki məntəqələri də yaradılacaq.



Azərbaycanda keçirilən seçkilər həmişə beynəlxalq aləmin diqqət mərkəzində olub. Builki növbədənkənar parlament seçkilərinin də beynəlxalq təşklatlarda böyük maraq doğuracağı mütləqdir. ATƏT PA-nın Mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, qurumun nümayəndələri sentyabrda olacaq parlament seçkiləri ilə bağlı müşahidəçilər missiyasının formalaşdırılması üçün hazırlıq işlərinə başlayıb. Məlumatda ATƏT PA seçkilərə dəvət aldığını təsdiqləyib və missiya göndərməyi planlaşdırdığını qeyd edib. O da bildirilib ki, təşkilati işlərə yenicə başlanılıb. Müşahidəçilərin sayı seçki gününə bir neçə həftə qalmış müəyyən ediləcək. Və bu barədə ictimaiyyətə ətraflı məlumat veriləcək. Həmçinin məlumatda qeyd edilib ki, seçki günü ATƏT PA missiya rəhbərlərinin iştirakı ilə mətbuat konfransı keçirəcək.

Sentyabrın 1-də ölkəmizdə reallaşacaq növbədənkənar parlament seçkilərinə hazırlıq mərhələsində dairə seçki komissiyalarının sədrləri üçün müşavirələr təşkil edilir. Mərkəzi Seçki Komissiyasında olan növbəti müşavirədə çıxış edən MSK sədri Məzahir Pənahov parlament seçkilərinin əhəmiyyətindən danışıb. MSK sədri bildirib ki, seçkini müşahidə etmək üçün Azərbaycana bütün qitələrdən nümayəndə heyətləri gəlir: "Məhz Prezidentin tapşırığı ilə Azərbaycanda 1000 məntəqədə veb-kameralar quraşdırılıb. Dünyanın istənilən nöqtəsindən MSK-nın saytında seçkiləri veb-kameralar vasitəsilə izləmək olur və veb-kameralar vasitəsilə seçkiləri müşahidə edənlərin sayı da ildən-ilə artır. Tələbləri pozan seçki komissiyaları cəzalandırılacaq".

MSK sədri Məzahir Pənahovun sözlərinə görə, Azərbaycan yeganə ölkədir ki, seçkilərdə media subyektləri heç bir qurumdan icazə almırlar və onlar seçkilərin işıqlandırılması prosesinə sərbəst şəkildə qoşulurlar. MSK sədri bildirib ki, parlament seçkilərinin keçirilməsi üçün ölkəmizdə 125 seçki dairəsi üzrə 6400-dən artıq seçki məntəqəsində lazımi şərait yaradılır: "Ötən prezident seçkilərində işğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsi yaradılıb. Parlament seçkilərində isə seçki məntəqələrinin sayı artacaq və seçkilər daha geniş tərkibdə keçiriləcək".

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov iyulun 31-də ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun qarşıdan gələn Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar seçki müşahidə missiyasının rəhbəri Ditmir Buşati ilə görüşüb. Görüş zamanı M.Pənahov beynəlxalq müşahidəçilərin Azərbaycanda keçirilən seçkilərə böyük maraq göstərməsini yüksək qiymətləndirib. O, həmçinin rəhbərlik etdiyi ali seçki qurumunun beynəlxalq təşkilatlarla əməkdaşlığa açıq olduğunu, istər MSK, istərsə də aşağı seçki komissiyalarında proseslərin müşahidəçilər və bütün maraqlı subyektlər üçün şəffaf reallaşdırıldığını diqqətə çatdırıb.



Səmimi qəbul və görüş üçün təşəkkürünü bildirən D.Buşati Azərbaycanda olduqları müddətdə MSK ilə yaxından əməkdaşlıq ediləcəyini deyib.

Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və Mərkəzi Seçki Komissiyasının (MSK) birgə təşkilatçılığı ilə "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda "dəyirmi masa" təşkil edilib. Hər iki qurumun əməkdaşlarının və media nümayəndələrinin qatıldıqları tədbirdə çıxış edən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov müvafiq dövlət qurumları ilə birgə təşkil edilən genişmiqyaslı maarifləndirmə layihələrinin seçkilərin azad, ədalətli və şəffaf keçirilməsindəki əhəmiyyətindən danışıb, seçki qanunvericiliyinin və seçki təcrübəsinin daha da təkmilləşdirilməsi istiqamətində görülən işlərə və atılan addımlara toxunub, parlament seçkilərinin qanunvericiliyin tələbləri əsasında, beynəlxalq standartlara tam cavab verən, yüksək səviyyədə təşkili üçün müvafiq şəraitin yaradıldığını diqqətə çatdırıb.

Ombudsman Səbinə Əliyeva vətəndaşların seçki hüququnun daha səmərəli təmin olunması və seçki sisteminin hərtərəfli inkişaf etdirilməsi üçün seçki subyektlərinin məlumatlılıq səviyyəsinin artırılması məqsədilə birgə maarifləndirici tədbirlərin həyata keçiriləcəyini bildirib. O, artıq MSK ilə birgə növbədənkənar parlament seçkiləri ərəfəsində həmin tədbirlərin keçirilməsi üzrə təqvim planının təsdiqləndiyini və icrası istiqamətində zəruri addımların atıldığını diqqətə çatdırıb. Müvəkkil seçkilərin Seçki Məcəlləsinə uyğun həyata keçirilməsinin ölkəmizin hüquqi, demokratik dövlət quruculuğu, insan hüquq və azadlıqlarının təmini, milli qanunvericiliyin inkişafı prinsiplərinə daim sadiq olduğunu bir daha təsdiqlədiyini deyib.

Demokratik prinsipləri əsas götürən ölkələrdə seçkilərdə əsas meyar şəffaflığın təmin edilməsidir. Ölkəmizdə bu istiqamətdə aparılan irəliləyişləri, yenilikləri beynəlxalq müşahidəçilər həmişə yüksək qiymətləndirirlər. Bütün müasir və mütərəqqi cəmiyyətlər seçkilər vasitəsi ilə öz gələcək inkişaflarını təmin edirlər. Sentyabrın 1-də respublikamızın hər yerində seçicilər sabitliyə, inkişafa və müstəqil Azərbaycanın işıqlı gələcəyinə səs verəcəklər.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Şəhid Surxay Məmmədovun nəşinin qalıqları Gəncədə torpağa tapşırılıb



**Birinci Qarabağ müharibəsində itkin düşən və 31 ildən sonra şəxsiyyəti müəyyənləşdirilən Daşkəsən rayonunun Qabaqtəpə kənd sakini şəhid hərbçi Surxay Rza oğlu Məmmədovun nəşinin qalıqları Gəncə Şəhidlər xiyabanında dəfn olunub.**

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində Daşkəsən Rayon İcra Hakimiyyəti və Gəncə Şəhər İcra Hakimiyyətinin rəhbərlikləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri, şəhidin yaxınları, şəhid ailələri, müharibə veteranları və əlilləri, rayon sakinləri və media mənsubları iştirak ediblər.

Şəhidin cənazə namazı ailəsinin yaşadığı evdə qılınıb, ruhuna dualar oxunub. Sonra şəhidin nəşi Gəncə Şəhidlər xiyabanında torpağa tapşırılıb, məzarı üstünə gül dəstələri düzülüb.

Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub və yaylım atəşi açılıb.

Şəhidin tabutuna bükülmüş Azərbaycan bayrağı şəhidin qardaşı Vüqar Məmmədova təqdim edilib.

Qeyd edək ki, şəhid Surxay Rza oğlu Məmmədov 7 dekabr 1974-cü ildə Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. O, könüllü olaraq Qarabağda gedən döyüşlərə qatılıb. 8 fevral 1993-cü ildə Ağdərə rayonunun Mehmanə kəndi ərazisində erməni silahlı dəstələri ilə gedən döyüşlərdə hərbi xidməti borcunu yerinə yetirərkən müqəddəs şəhidlik zirvəsinə ucalıb. İtkin düşmüş hesab olunan Surxay Məmmədovun nəşinin qalıqları İsmayıllı Şəhidlər xiyabanında dəfn olunan naməlum şəhid qəbirlərindən birində aşkar edilib.

# Ana dilimizin saflığını qoruyanlar mükafatlandırıldı

**Avqustun 1-də Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzində Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü münasibətilə tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə açan Monitorinq Mərkəzinin direktoru professor Sevinc Əliyeva bəşər mədəniyyətinin tərkib hissəsi olan dili mədəni dəyərlərin ötürülməsi, qorunması və qavranılmasında mühüm amil kimi səciyyələndirmiş, ana dilini və əlifbanı milli kimliyimizin göstəricisi, xalqın sərvəti və varlığının təsdiqi kimi qiymətləndirildi. Dövlətimizin ictimai-siyasi həyatında və yazı mədəniyyəti tarixində mühüm hadisə olan latın qrafikalı Azərbaycan əlifbasına keçidin tam təmin edilməsində, ana dilinin milli dövlətçiliyimizin əsas atributu kimi təsdiq və qorunmasında, eləcə də dil siyasətinin formalaşdırılmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərindən danışan S.Əliyeva dilimizin dövlət dili statusuna yüksəlməsini xalqın dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilin zənginliyinin sübutu kimi dəyərləndirdi.

Çıxış edənlərdən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Könül Həsənova, Bakı Mühəndislik Universitetinin Azərbaycan dili və pedaqogika kafedrasının müdiri professor Təranə Hacıyeva, Azərbaycan Televiziyasının aparıcısı Nuranə Nur, Media FM-in təsisçisi və baş direktoru Rüstəm Əliyev ana dilinin saflığının qorunması və inkişafının dövlət siyasətinin tərkib hissəsi olduğunu qeyd edərək ölkəmizdə dil siyasətinin formalaşmasında, Azərbaycan dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsində Ümummilli Lider Heydər Əliyevin, eləcə də onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin müstəsna xidmətlərindən bəhs etdilər.

Azərbaycan dilinin saflığının qorunması, təbliği və düzgün tətbiqi işinə xüsusi töhfə verən təhsil və media nümayəndələrinin bir qrupuna Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Fəxri fərmanı, müxtəlif hədiyyələr təqdim edildi. Mükafat alanlar sırasında qəzetimizin əməkdaşı Elşən Qəniyev də var.

*"Azərbaycan"*

## 2 Avqust Azərbaycan Kinosu Günüdür

# Tariximizin ekran təcəssümü

**Milli-mənəvi dəyərlərimizdən, tariximizdən, xalqımızın şöhrətinə şöhrət qatan böyük şəxsiyyətlərimizdən bəhs edən filmlərin çəkilməsinin böyük əhəmiyyəti var. Həmin ekran əsərləri həm də keçmişimizə, bu günümüzə və gələcəyimizə ehtiramımızın ifadəsidir.**











1973-cü ildə lentə alınan "Nəsimi" belə filmlərdən biridir. Ekran əsəri Azərbaycan xalqının böyük mütəfəkkir şairi, filosofu, hürufi təriqətinin nümayəndəsi İmadəddin Nəsimiyə (1369-1417) həsr olunub. Bu tarixi-bioqrafik film İmadəddin Nəsiminin 600 illik yubileyi münasibətilə çəkilib. Azərbaycan xalqının mədəni həyatında böyük hadisə olan bu yubileyə "Nəsimi" bədii filminin çəkilməsi kinematoqrafçılarımızın dəyərli töhfəsi idi.

Filmin çəkilişindən iki il əvvəl UNESCO-nun qərarı ilə İmadəddin Nəsiminin anadan olmasının 600 illiyi dünya miqyasında geniş qeyd edilmişdi.

"Nəsimi" filminin ekranlaşdırıldığı illər də kino sənətimizin maraqlı dövrünə təsadüf edir. Araşdırıcılar 1960-1970-ci illəri Azərbaycan kinosunun sürətli yüksəliş vaxtları hesab edirlər. Bu dövrdə yalnız kino sənətində deyil, ədəbiyyatda, incəsənətin digər sahələrində də canlanma var idi.

"Nəsimi" filminin çəkildiyi 1970-ci illərdə kinoda tarixi mövzulara diqqət artdı. Həmin illərdə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında istehsal olunan "Yeddi oğul istərəm", "Ulduzlar sönmür", "Axırıncı aşırım", "Nəsimi", "Qatır Məmməd", "Dədə Qorqud", "Babək" filmləri Azərbaycanda müxtəlif dövrlərdə baş vermiş əhəmiyyətli hadisələri və ayrı-ayrı tarixi şəxsiyyətlərimizin həyatını, fəaliyyətini dolğun şəkildə əks etdirirdi.

Haqqında geniş söz açdığımız "Nəsimi" filminin titrində yazılıb: "Bu film orta əsrlərin zülməti içərisində günəş kimi parlayan böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin mürəkkəb və faciəli taleyindən bəhs edir. XIV əsrin axırı XV əsrin əvvəllərində Azərbaycan xalqı bir tərəfdən yadelli işğalçıların, digər tərəfdən bir-birilə aramsız müharibələr aparan yerli feodallarla irticaçı ruhanilərin zülm və talanlarına məruz qalmışdı. Nəsimi yalnız dövrünün ictimai haqsızlıqlarına qarşı çıxan şair və insan ləyaqətini müdafiə edən humanist filosof olaraq qalmamışdı, onun yaradıcılığında islam qaragüruhu ilə mübarizə aparıb öz dövründə mütərəqqi rol oyanayan, eyni zamanda əsrin məhdud, idealist dünyagörüşü təsirindən tamam azad olmayan hürufilik hərəkatının bir çox ideyaları da öz əksini tapmışdı. Film Nəsimi irsinin bizim üçün daha qiymətli ideyaları, zülmə və istibdada qarşı üsyan motivləri əsasında yaradılmışdır".

Tarixi mövzuda əsər yaratmaq böyük zəhmət və məsuliyyət tələb edir. Bəhs olunan dövrü, şəxsiyyəti, eyni zamanda onun müasirlərini, mühitini dərindən öyrənmək əsas şərtlərdən biridir. Diqqətə çatdıraq ki, "Nəsimi" filminin ssenari müəllifi Xalq yazıçısı İsa Hüseynovdur. Film yazıçının "Məhşər" romanı əsasında çəkilib. Quruluşçu rejissoru Həsən Seyidbəylidir. İstedadlı olduqları qədər də öz işinin peşəkarı olan sənətkarlar - ssenari müəllifi və quruluşçu rejissoru "Nəsimi" filminin uğurlu alınması üçün bütün məsələləri, şərtləri nəzərə alıblar. İlk növbədə filmin müəllifləri elmi, tarixi və etnoqrafik cəhətdən dəqiqliyi saxlamağa səy göstəriblər. Bunun üçün görkəmli nəsimişünaslarla, tarixçilərlə, filoloqlarla, filosoflarla, sənətşünaslarla məsləhətləşiblər ki, tarixi hadisələr, şair İmadəddin Nəsiminin dövrü, onun dili, eləcə də hürufilik baxımından yanlışlıqlara yol verilməsin. M.Quluzadə (Nəsiminin yaradıcılığı üzrə), Z.Quluzadə (fəlsəfə üzrə), T.Musəvi (tarix üzrə), R.Əfəndiyev (etnoqrafiya üzrə), Əli Fəhmi (leksika üzrə) məsləhətçi seçilib. Onlar filmin çəkilişləriboyu da öz məsləhətlərini veriblər.

Ekran əsərinin quruluşçu operatoru Rasim İsmayılov, quruluşçu rəssamları Məmməd Hüseynov və Mais Ağabəyov, bəstəkarı Tofiq Quliyev idi. Geyimləri rəssam Elçin Aslanov hazırlayıb.

Filmdə iştirak edən bütün aktyorlar - istər əsas, istərsə də epizodik rolların ifaçıları üzərlərinə düşən işin öhdəsindən layiqincə gəldilər. Bunun ən böyük səbəbi, şübhəsiz ki, düzgün aktyor seçimi ilə bağlıdır. Rejissor Həsən Seyidbəyli "Nəsimi" kimi bir filmin baş qəhrəmanını oynamaq üçün hələ çoxlarının tanımadığı bir gənc aktyoru seçdi. 1948-ci il avqustun 8-də Ağsu rayonunda dünyaya gələn, 1965-ci ildə Ağsuda orta məktəbi, 1969-cu ildə isə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirən Rasim Balayev o vaxta qədər "Ulduzlar sönmür" filmində kiçik bir rolda çəkilmişdi. "Nəsimi" filmi barədə söz-söhbət getdiyi, ilk hazırlıq işləri görüldüyü vaxtlarda gənc aktyor bədbinliyə qapılmışdı. Sonralar Rasim Balayev danışırdı: "Təxminən 1972-ci il idi. Xəstəxanada yatırdım. Stress, əsəb məni əldən salmışdı, depressiyada idim. Özümü çox pis hiss edirdim. İkinci rejissor xəstəxanaya gəldi. Oxumaq üçün ssenarini mənə verdi, "oxu" dedi və getdi. Mən heç oxumadım, çünki inanmırdım ki, doğrudan da, filmə çəkmək istəyirlər. Həm də xəstəliyimdən dolayı inanmırdım ki, yenidən düzələrəm... Növbəti dəfə gələndə oxumasam da yalandan dedim oxudum. Çox gəldilər-getdilər, əl çəkmədilər. Nəhayət, xəstəxanadan çıxdım, məni məşqə dəvət etdilər. İki ay məşqdən sonra kinoya çəkilmək üçün təsdiq olundum. Sonradan rəhmətlik Həsən Seyidbəyli dedi ki, məni televiziyada şeir deyəndə görüb, İsa Hüseynovla birlikdə bəyəniblər. Üz cizgilərim onların çox xoşuna gəlsə də, bir aktyor kimi nəyə qadir olduğumu bilməyiblər. İki aylıq məşq də bundan ötrü idi ki, tam qərara gəlsinlər".

Beləliklə, filmin baş qəhrəmanını - Nəsimisini canlandırmaq gənc aktyor Rasim Balayevə həvalə olundu. "Nəsimi" Rasim Balayevin kino sahəsində ilk böyük işi oldu. Bundan sonra o, "Babək" filmində Babək, "Dədə Qorqud"da Beyrək və daha neçə-neçə uğurlu rolları ilə Azərbaycan kino sənətimizi zənginləşdirdi.

Filmin Fatiməsini isə aktrisa Xalidə Quliyeva (Xalidə Qasımova kimi) canlandırdı. O, bu filmə çəkiləndə hələ tələbə idi. Həsən Seyidbəyli Xalidə Quliyevanı Tofiq Tağızadənin "Qızıl qaz" filmindən bəyənmişdi.

"Nəsimi" filminə çəkilən digər aktyorlar - Yusif Vəliyev Əmir Teymuru, İsmayıl Osmanlı Fəzlullah Nəimini, Məmmədrza Şeyxzamanov Şeyx Əzəmi, Səməndər Rzayev Şirvanşah I İbrahimi, Kamal Xudaverdiyev Yusifi, Almaz Əsgərova Şəmsi, Tofiq Mirzəyev Dövlət bəyi, Muxtar Maniyev Miranşahı, Əbdül Mahmudov dərvişi ilə ekran əsərini mükəmməlləşdirdilər.

"Kodak" kinolentinə çəkilən ilk Azərbaycan filmi - "Nəsimi" əsasən Qobustanda, Naxçıvanda - Əlincə qalasında, Suraxanıdakı Atəşgah kompleksində, İraqda - Hələb şəhərində (dəyirmanın fırlanması kadrı), Ramana qalasında, Özbəkistanın Urgenç vilayətinin Xivə şəhərində ekranlaşdırıldı. Rasim Balayev deyib: "Nəsimi" yeganə tarixi filmdir ki, orada heç bir dekorasiyadan istifadə edilməyib. Çəkiliş aparılan bütün məkanlar tam təbiidir".

1974-cü ildə "Nəsimi" filmi Bakıda keçirilən VII Ümumittifaq kinofestivalında tarixi mövzuda ən yaxşı filmə görə mükafat aldı. Ən yaxşı kişi rolunun ifasına görə aktyor Rasim Balayevə II mükafat verildi.

"Nəsimi" filminin yaradıcı heyəti əlli bir il bundan qabaq əsrləri adlayıb Azərbaycan xalqının istedadlı, yenilməz övladlarından olan İmadəddin Nəsimini sənətin qüdrəti ilə bu günümüzə gətirdilər.

Azərbaycan xalqı hər dövrdə istedadlı və qəhrəman övladlar yetirib. XXI əsrin ikinci onilliyində baş verən hadisələr - 2016-cı ilin Aprel döyüşləri, 2020-ci ilin Vətən müharibəsi, 2023-cü ilin lokal xarakterli antiterror əməliyyatları bunu bir daha təsdiq etdi. Azərbaycanın tarixinə cəsur, şücaətli övladlarının yazdıqları yeni salnamələrin filmlərimizdə təcəssümünü tapacağına inanırıq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# COP29 Azərbaycan Əməliyyat Şirkəti "İqlim fəaliyyəti fotoobyektivdə" adlı beynəlxalq fotomüsabiqə elan edir

**COP29 Azərbaycan Əməliyyat Şirkəti ictimaiyyətin diqqətinin aktual iqlim problemlərinə yönəldilməsi və fəal maarifləndirmə məqsədilə reallaşdırılan müxtəlifyönümlü təşəbbüslərin davamı olaraq, "İqlim fəaliyyəti fotoobyektivdə" adlı beynəlxalq fotomüsabiqə elan edir.**




Əməliyyat Şirkətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qlobal miqyasda fotoqrafları iqlim dəyişmələri mövzusunda vizual dialoqa dəvət edən bu layihənin əsas məqsədi fotohekayələr vasitəsilə iqlim problemlərinə yeni baxış bucağı ilə yanaşılması və müasir sənət alətləri vasitəsilə qlobal fəaliyyətin stimullaşdırılmasıdır.

Fotomüsabiqənin konseptual xətti COP29 konfransının mövzuları ilə ahəngdə olaraq dünyanın hər yerində məskunlaşan icmalara, onların mədəni həyatı və ətraf mühitin qorunmasındakı roluna, eyni zamanda iqlim dəyişmələrinin landşaft və ekosistemlərə təsiri, bu təsirlərə məruz qalan flora və faunaya yönəlib. Belə ki, meşələrin və biomüxtəlifliyin mühafizəsi, su ehtiyatlarının idarə olunması, dayanıqlı kənd təsərrüfatı, iqlim dəyişmələrinə adaptasiya, mədəni irsin qorunması kimi mövzular layihənin tematik əsasını təşkil edir.

Ümumilikdə müsabiqəyə qəbul edilən fotoşəkillər "İqlim dəyişmələrinin təsirləri", "İqlim həlləri və innovasiyalar", "Gənclər və təhsil", "Flora və fauna" olmaqla dörd müxtəlif kateqoriya üzrə təsnifatlandırılacaq. Fotoşəkillər yaradıcı yanaşma, texniki bacarıq, təsirli mesaj mahiyyəti kimi müxtəlif meyarlar üzrə ekspertlər qrupu tərəfindən qiymətləndiriləcək. Qalib fotoqrafların çəkdiyi fotoların COP29 konfransı zamanı xüsusi ekspozisiyada yer alması onlara istedadlarını dünyaya tanıtmaq imkanı yaradacaq. Bununla yanaşı, seçilən fotoşəkillər konfransın rəsmi veb-saytı və sosial media kanalları daxil olmaqla müxtəlif platformalarda geniş nümayiş etdiriləcək.

Qeyd edək ki, müsabiqənin texniki tələb və şərtləri barədə daha ətraflı məlumatları https://cop29.az/az/pages/the-climate-action-in-focus linkinə keçid etməklə əldə edə bilərsiniz. Layihəyə qəbul prosesi onlayn şəkildə sentyabrın 15-dək davam edəcək. Bu iqlim hərəkatına qoşulmaq niyyətində olan həvəskar və peşəkar fotoqraflar qeyd edilən tarixədək öz müraciətlərini photo.exhibition.cop29@cop29.az elektron poçtu vasitəsilə göndərə bilərlər.

# Qərbi Azərbaycan İcması bəyanat yaydı

**Bu ilin noyabrında Azərbaycanda keçiriləcək COP29 yaxınlaşdıqca Ermənistanda bəzi dairələr, erməni diasporu, Qərb ölkələrində Luis Okampo kimi irqçilər "Bakıda saxlanılan ermənilərin azad edilməsi" ilə bağlı hay-küy kampaniyasına başlamışlar.**

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Bəyanatda həmçinin qeyd olunub: "Özünü "tolerant" hesab edən Ermənistan cəmiyyəti, insan hüquqlarından, dəyərlərdən dəm vuran həmin dairələr, ilk növbədə Ermənistan hakimiyyətinə 30 il ərzində Azərbaycan ərazilərini nə üçün işğal altında saxladıqları barədə sual verməli, işğala görə üzr istəməyi tələb etməli, bununla bağlı ictimai müzakirələrə başlamalı, 4000-ə qədər azərbaycanlı itkinin taleyinin müəyyənləşdirilməsinə çağırmalıdırlar.

Açıq internet resurslarında Ermənistan ordusunun xüsusilə Birinci Qarabağ müharibəsində mülki azərbaycanlılara qarşı törətdiyi vəhşilikləri əks etdirən çoxlu foto və videolar var. Erməni cəmiyyəti ilk növbədə öz hakimiyyətindən, "müstəqil məhkəmə sistemi"ndən həmin hərbçilərin, sahə komandirlərinin cəzalandırılmasını tələb etməli idi.

Bütün bunların baş vermədiyi təqdirdə, "Bakıda saxlanılan ermənilərin azad edilməsi" çağırışları qeyri-səmimilikdən, cığallıqdan, milli müstəsnalığın təbliğindən, COP29 kimi mötəbər bir tədbirə evsahibliyi edəcək Azərbaycana qarşı çirkin təbliğatdan başqa bir şey deyil".




# Yunanıstanla Azərbaycan arasında ətraf mühitin mühafizəsi barədə əməkdaşlıq müzakirə olunub



**Yunanıstan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Xristos Kapodistrias ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevlə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyindən məlumat verilib.

Görüşdə Azərbaycanın bu il evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda görüşdə iki ölkə arasında ətraf mühitin mühafizəsi və gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

# Ölkəmiz COP29-da "yaşıl taksonomiya"nı birləşdirən layihə təqdim edəcək

**Azərbaycan Mərkəzi Bankı (AMB) dayanıqlı inkişaf üzrə "Yol xəritəsi"ni həyata keçirir və tənzimləyici kimi "yaşıl kreditləşmə"ni stimullaşdırmağa və iqlim dəyişiklikləri ilə bağlı riskləri minimuma endirməyə hazırdır.**



Bu barədə Trend-in sualına cavab olaraq AMB İdarə Heyətinin sədri Taleh Kazımov mətbuat-konfransında deyib.

"Bu "Yol xəritəsi"nə taksonomiyanın yaradılması, "yaşıl kredit"lər, istiqrazlar üçün tənzimləmənin yaradılması daxildir. "Yaşıl kredit"lər və istiqrazlar üzrə iş 2024-cü ilin sentyabr-oktyabr aylarında başa çatacaq. Dayanıqlı inkişaf - AMB-nin işinin əsas prioritet istiqamətlərindən biridir", - deyə o, qeyd edib.

AMB-nin baş direktoru Şahin Mahmudzadənin sözlərinə görə, Azərbaycan COP29-da dünyanın bir çox ölkəsini birləşdirəcək "yaşıl əməliyyat"lar üzrə öz taksonomiya layihəsini təqdim etməyi planlaşdırır.

"Hazırda dünyanın 50-yə yaxın ölkəsi "yaşıl istiqrazlar və kreditlər"lə bağlı taksonomiyaya malikdir, lakin bu taksonomiayalar arasında əlaqələr yoxdur, onlar milli xarakter daşıyır. Ona görə də bizdə ideya yaranıb ki, Azərbaycan bütün ölkələri birləşdirən taksonomiya prinsiplərinin inkişafının təşəbbüsçüsü kimi çıxış etməlidir. Hazırda biz bu istiqamətdə "International Platform on Sustainable Finance" (IPSF) və "Sustainable banking & finance network" (SBFN) kimi iki beynəlxalq institutla çalışırıq. Biz bu taksonomiyanı COP29-da təqdim etməyi planlaşdırırıq", - Ş.Mahmudzadə vurğulayıb.

# "COP29 QHT Koalisiyası"na daha 9 ölkədən 15 xarici QHT qoşulub

**"COP29 QHT Koalisiyası"nın "Zoom" vasitəsilə ikinci hibrid görüşü keçirilib. Görüşdə inklüzivlik mövzusunda xarici və yerli vətəndaş cəmiyyəti təmsilçiləri geniş müzakirələr aparıb.**

Görüşə Azərbaycan Milli QHT Forumunun dəvəti ilə COP29-da BMT-nin İqlim dəyişikliyi üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai, COP29-un Gənc İqlim çempionu Leyla Həsənova qonaqlar qismində qatılıb, onlar sualları cavablandırıblar.

Hazırda "COP29 QHT Koalisiyası"nda 39 ölkədən 123 xarici QHT təmsil olunur. Azərbaycan QHT-lərini isə Koalisiyada milli çətir təşkilat olan Azərbaycan Milli QHT Forumu təmsil edir.

Forumun İdarə Heyətinin sədri Ramil İskəndərli bildirib ki, son günlər Norveç, İspaniya, Rumınıya, Şri-Lanka və digər ölkələrdən də xarici QHT-lər Koalisiyaya qoşulub:

"Müraciətlər davam edir. Fikrimizcə bu, çox unikal platformadır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransında (COP) müşahidəçi statusa (observer status) malik QHT-lərin birləşdiyi 9 Həmfikir Qrupdan (Constituency) olan 39 QHT də koalisiyada təmsil olunur".

# "Yaşıl enerji" zonaları: Naxçıvan

## Muxtar respublikada 1500 MVt gücündə bərpaolunan enerji layihələrinin reallaşdırılmasına imkan var

**Prezident İlham Əliyev Qarabağı, Şərqi Zəngəzuru və Naxçıvanı "yaşıl enerji" zonaları elan edib. Konkret olaraq Naxçıvanın bu sahədəki imkanlarını qeyd etməli olsaq, deməliyik ki, muxtar respublikada həm günəş və külək, həm də su-elektrik stansiyalarının inşası üçün böyük potensial var.**







Əvvəla, elə indinin özündə də Naxçıvan MR-də istehsal olunan elektrik enerjisinin xeyli hissəsi alternativ və bərpaolunan enerji mənbələrindən yaranır. Məsələn, muxtar respublikanın Dövlət Energetika Xidmətinin məlumatına görə, cari ilin iyun ayında istehsal olunan ümumi elektrik enerjisinin 70,4 faizi alternativ və bərpaolunan enerji mənbələrinin payına düşüb. Bu göstərici may ayında 92,5 faiz olub. Su-elektrik stansiyaları daxil olmaqla, bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının generasiya gücü isə 107,8 MVt-dır. Bu, ümumi gücün təxminən 44,04 faizini təşkil edir. İstehsal olunan elektrik enerjisi İstilik Elektrik Stansiyalarında (İES) 13 milyon 677 min kilovat-saat, Su-Elektrik Stansiyalarında (SES) 26 milyon 227 min 797 kilovat-saat, digər alternativ və bərpaolunan mənbələr üzrə isə 6 milyon 289 min 209 kilovat-saat olub. Bu ilin altı ayı ərzində şinə buraxılan elektrik enerjisi 221 milyon 597 min 860 kilovat-saat olmaqla, keçən ilin müvafiq dövrü ilə müqayisədə 23,41 faiz artıb.

Naxçıvan MR-in özünün "yaşıl enerji" mənbələri potensialı ilə enerjinin bu növünün ixracatçısına çevrilməsi də hədəflənib. Bu istiqamətdə Azərbaycan-Türkiyə Enerji Forumu möhkəm platforma təşkil edir.

İlk dəfə 2021-ci ildə Bakıda təşkil olunan Azərbaycan-Türkiyə Enerji Forumu iki qardaş ölkə arasında enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün nəzərdə tutulmuşdu. Əsasən "yaşıl enerji" konsepsiyası çərçivəsində formalaşdırılan bu platforma enerji sahəsində əməkdaşlığın müttəfiqlik səviyyəsinə yüksəldilməsini hədəfləyir. 2022-ci ildə Türkiyədə keçirilən ikinci foruma növbəti dəfə Naxçıvan evsahibliyi etdi.

2023-cü ilin sentyabr ayında keçirilən Azərbaycan-Türkiyə III Enerji Forumunda vurğulandı ki, külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun ən azı 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlıq Naxçıvanı "yaşıl enerji"nin istehsalçısı, ixracatçısı mənbəyinə və tranzit məkanına çevirəcək. Bu xüsusda "yaşıl enerji" layihələrinin reallaşdırılması ilə bağlı planlar diqqətə çatdırıldı. Yekunda isə "Azərbaycan-Türkiyə III Enerji Forumunun Protokolu", həmçinin "Naxçıvan üzərindən "Türkiyə-Azərbaycan Qarşılıqlı Əlaqə" layihəsinin icrası ilə əlaqədar 2023-2025-ci illərdə "TEİAŞ" və "Azərenerji" ASC-nin birgə həyata keçirəcəyi Yol Xəritəsi", bir sıra digər sənədlər imzalandı.

Qeyd edək ki, keçənilki və builki Bakı Enerji Həftəsində də Naxçıvan "yaşıl enerji" zonası kimi diqqətdə oldu. 2023-cü ildə Naxçıvanda Bakı Enerji Həftəsinin xüsusi sessiyası da keçirildi. Həmin tədbirdə də muxtar respublikada 1500 MVt gücündə "yaşıl enerji" layihələrinin reallaşdırılacağı bildirildi. Sessiyanın gedişində Azərbaycanın Energetika Nazirliyi və "Total Energies" şirkəti arasında "250 MVt gücündə quruda külək, Naxçıvan Muxtar Respublikasında 250 MVt gücündə günəş-elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu", eyni zamanda adıçəkilən nazirliklə "Nobel Energy Manage-ment" MMC arasında "Naxçıvan Muxtar Respublikasında 400 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi və istehsal ediləcək elektrik enerjisinin Türkiyə Respublikasına ixracı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalandı. Naxçıvanın "yaşıl enerji" potensialının müzakirə olunduğu həmin sessiyada bir sıra ölkələrin nümayəndələri də iştirak edirdi ki, bu da sözügedən istiqamətdə yeni addımların atılmasına zəmin yaradır.

Bu il iyunun əvvəlində keçirilən Bakı Enerji Həftəsində də həmin mövzuya geniş toxunuldu. Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar tədbirin açılış mərasimindəki çıxışında dedi: "Biz Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə sıx əməkdaşlıq edirik. Məqsədimiz burada - Naxçıvan ilə Türkiyə arasında qarşılıqlı enerji bağlantısı imkanlarını artırmaqdır. Bu investisiyaların yekunlaşdırılması ilə daha çox yeni "yaşıl enerji"ni təmin edə və bunları Türkiyə bazarına nəql edə bilərik. Çıxışımı yekunlaşdırmazdan əvvəl bildirmək istəyirəm ki, Türkiyə bu istiqamətdə enerji layihələrinin regionda əsas vasitəçisi kimi çıxış edir. Belə ki, Türkiyə Şərq ilə Qərb arasında unikal mövqedə yerləşir. Düşünürəm ki, regional əməkdaşlığı daha da təşviq etməklə, enerji təhlükəsizliyini prioritet kimi görməklə biz dayanıqlı və dinamik enerji landşaftı qura bilərik ki, bu da gələcək nəsillərə xidmət edə bilər".

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (AREA) direktor müavini Kamran Hüseynov Bakı Enerji Həftəsinin Forum hissəsindəki çıxışında bildirdi ki, Naxçıvandan, əsasən yeni günəş-elektrik stansiyalarından (GES) Türkiyəyə və sonra da ola bilsin ki, Avropaya elektrik enerjisi ixrac etmək planlaşdırılır. Energetika Nazirliyi Naxçıvan MR-də bərpaolunan enerji mənbələrinin yaradılmasına xarici şirkətləri cəlb edir. Xüsusən "TotalEnergies" və "Nobel Energy" şirkətləri Naxçıvanda ümumi gücü 650 MVt olan GES, "Masdar" 150 MVt gücündə GES, "Notus" şirkəti Naxçıvanın şimal-qərbində 70 MVt gücündə GES layihələrini elan ediblər.

Bütün bunlar hələ başlanğıcdır. Digər layihələr də öyrənilir və bu da öz növbəsində inam yaradır ki, "yaşıl enerji" hədəflərimizə tez və uğurla çatacağıq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Böyükşor gölü üzərində 100 kVt gücündə pilot günəş enerjisi qurğusu istismara verilib

**Energetika Nazirliyi və Asiya İnkişaf Bankı (AİB) tərəfindən həyata keçirilən "Üzən günəş panelləri sisteminin inkişafına dair bilik mübadiləsi və texniki yardım" layihəsi çərçivəsində Böyükşor gölü üzərində ümumi gücü 100 kVt olan günəş enerjisi qurğusunun açılış mərasimi keçirilib.**

Tədbirdə çıxış edən Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev karbon emissiyalarının azaldılması və iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal səylərə ölkəmizin töhfələrindən danışıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bərpa olunan enerjidən istifadənin inkişafını prioritetləşdirən dövlət siyasətinə müvafiq olaraq reallaşdırılan meqa-layihələrə diqqət çəkilib, Qaradağ Günəş Elektrik Stansiyasının istismara verilməsi ilə cari ilin altı ayında günəş enerjisi istehsalında 8 dəfədən çox artım qeydə alındığını bildirib.



Çıxışda su hövzəsi üzərində istismara verilən ilk günəş-elektrik qurğusu haqqında: "95 kilovatı suda, 5 kilovatı quruda quraşdırılan layihə vasitəsilə illik 160 000 kilovat-saatdan çox elektrik enerjisi istehsalı proqnozlaşdırılır.

Layihə özəl investisiyaların cəlb olunması üçün çağırış rolunu oynayır və genişləndirilməsi ilə bağlı müzakirələrə artıq start verilib" deyə qeyd olunub.

Daha sonra çıxış edən Bankın Azərbaycandakı Daimi Nümayəndəliyinin rəhbəri xanım Kendis Makdeyqan deyib:

"AİB regional layihə çərçivəsində Azərbaycanda su üzərində günəş enerjisindən istifadənin inkişafı üçün texniki dəstək verir. COP29 tədbiri ərəfəsində bu innovativ qurğunun işə salınmasının əhəmiyyəti böyükdür. Pilot layihə kiçik miqyasda həyata keçirilsə də, Azərbaycanda daha bir "yaşıl enerji" mənbəyinə çevrilir, su və günəş resurslarından birgə istifadəni optimallaşdırır, enerji kompleksini şaxələndirir və emissiyaların qarşısını alır".

Qeyd edək ki, layihə çərçivəsində stansiyanın istismarı və texniki xidməti sahəsində təlimlərin təşkili də nəzərdə tutulur.

# REGİONLAR

## İlin sonunadək Naxçıvan Regional DOST Mərkəzinin açılması planlaşdırılır

**Naxçıvan Regional DOST Mərkəzinin inşası artıq yekunlaşır və cari ilin sonunadək mərkəzin açılması nəzərdə tutulur. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən növbəti kollegiya iclasında bildirilib.**

Kollegiya iclasında əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq ölkədə ardıcıl sosial islahatların aparıldığını, DOST mərkəzlərinin yaradılmasının həmin islahatların mühüm uğurlarından olduğunu bildirib. Qeyd olunub ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası 160 sosial xidmətin "bir pəncərə"dən, şəffaf, operativ, vətəndaş məmnunluğuna uyğun göstərilməsinə imkan yaradıb.

DOST mərkəzlərinin sayı getdikcə artır. Bu il Naxçıvanda Regional DOST Mərkəzi qurulmaqla yanaşı, Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində həmin mərkəzin filialları da yaradılacaq.

İclasda Naxçıvan MR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2024-cü ilin I yarımilindəki fəaliyyətinin nəticələri təqdim edilib. Muxtar respublikada həyata keçirilən sosial müdafiə və aktiv məşğulluq proqramları, sosial xidmətlərin elektronlaşdırılması işləri, Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin "Pensiya", "Sosial ödənişlər, "Əmək və Məşğulluq", "Əlillik", "Reabilitasiya" və s. altsistemlərinin tam tətbiq edildiyi, sosial ödənişlərin e-sistem üzərindən proaktiv qaydada təyin edildiyi qeyd olunub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun bu ilin 6 ayı üzrə fəaliyyətinin yekunları diqqətə çatdırılıb. Bildirilib ki, aparılan ardıcıl islahatlar sosial təminat növləri üzrə əhaliyə ödənilən vəsaitlərdə mütəmadi artımla nəticələnir.



Bunun növbəti təzahürü olaraq cari ilin ilk yarımilində DSMF-nin xərcləri 410 milyon manat artaraq 3 milyard 419 milyon manata, pensiya üzrə ödənilən vəsait 400 milyon manata yaxın artaraq 3 milyard 234 milyon manata çatıb. Həmin dövrdə pensiya, müavinət, təqaüd, ünvanlı yardımlar üzrə 408,5 milyon manat çox olmaqla 4 milyard 382 milyon manat ödənildiyi, sosial sığorta haqları üzrə daxilolmalarda 232 milyon manat artım olduğu diqqətə çatdırılıb.

2024-cü ilin ilk yarımilində də 96,1 min pensiya, müavinət və təqaüd təyinatının e-sistem üzərindən proaktiv qaydada həyata keçirildiyi qeyd edilib. DSMF-də son illər aparılan islahatlarla bağlı fondun bu il artıq 20-dək, son 3 il yarımda 40-dan çox beynəlxalq mükafatla təltif edildiyi qeyd olunub.

DOST İş Mərkəzi tərəfindən hesabat dövründə görülən işlərdən bəhs edilib. Ödənişli ictimai işlər proqramının işğaldan azad olunan ərazilərimizə köçürülən sakinləri də əhatə edərək onların məşğulluğuna dəstək olduğu bildirilib.

İclasda görülən işlərin nəticələri müzakirə edilib, həmçinin kollegiya tərəfindən daha 42 peşə və kvalifikasiya standartı təsdiqlənib.

## Masallıda kənd qadınlarının hüquqları mövzusunda maarifləndirici seminarlar davam edir

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyələşdirdiyi, Masallıda Qadınların Sosial İnkişafına Dəstək İctimai Birliyinin icra etdiyi "Kənd yerlərində qadın hüquqlarının qorunması" layihəsinin növbəti tədbiri keçirilib.**

Növbəti seminar Masallı şəhərində təşkil olunub. Masallıda Qadınların Sosial İnkişafına Dəstək İctimai Birliyinin sədri və layihə rəhbəri Nərgiz Muxtarova layihənin donoru və məqsədləri haqqında iştirakçılara məlumat verib. O bildirib ki, layihə çərçivəsində Masallı rayonunun 5 fərqli ərazisində qadınların hüquqları ilə bağlı maarifləndirici tədbirlər həyata keçirilir. Artıq Şərəfə və Mahmudavar kəndlərində icra edilmiş layihə bu gün Masallı şəhərində reallaşdırılır. Növbəti seminarlar Ərkivan və Hişkədərə ərazilərində təşkil ediləcək.

Sonra layihənin eksperti Afiq Məlikov ölkəmizdə qadınların hüquqi öhdəlikləri, kənd yerlərində gender stereotipləri, gender bərabərliyi, gender təhsili barədə məlumat verib.

Seminarda fikir mübadiləsi aparılıb və təkliflər dinlənilib. Sonda seminar iştirakçılarına sertifikatlar təqdim edilib.

## Cəlilabadda "Bir Peşənin Sirri" festivalı keçirilib

**Cəlilabad şəhəri Heydər Əliyev seyrangahında Peşə Təhsili üzrə Dövlət Agentliyi və Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin birgə təşkilatçılığı ilə "Bir Peşənin Sirri" festivalı keçirilib. Açılışda çıxış edənlər ölkənin iqtisadi inkişafında peşə təhsilinin rolundan, gənclərin məşğulluq imkanlarının artırılması istiqamətindəki tədbirlərdən bəhs ediblər.**



Festivalda qonaqlara Bakı, Cəlilabad, Neftçala, Salyan, Şirvandan olan tələbələrin və peşə təmayüllü siniflərin şagirdlərinin əl işlərindən ibarət sərgilər, ustad dərsləri və müxtəlif fəaliyyətlər nümayiş olunub.

Bununla yanaşı, tədbir iştirakçıları üçün əyləncəli oyunlar, viktorinalar keçirilib. Peşə təhsil müəssisələri tərəfindən reallaşdırılan



yarışların qalibləri dəyərli hədiyyələrlə mükafatlandırılıb. Həmçinin tədbir iştirakçıları müxtəlif peşələrin sirri ilə bağlı maraqlı məlumatlar əldə ediblər.

Qeyd edək ki, tədbirin keçirilməsində əsas məqsəd peşə təhsilinin əhatə dairəsini daha da genişləndirmək, gənclərin, valideynlərin, o cümlədən bütün maraqlı tərəflərin bu prosesə cəlb edilməsinin təminidir.

## Goranboyda sel sularının yaratdığı çətinlik aradan qaldırılıb

İntensiv yağıntılar nəticəsində yaranmış güclü sel suları Goranboy rayonunun Azad-Dəyirmanlar-Bağçakürd avtomobil yolunun təqribən 1-ci kilometrində yol təsərrüfatına ziyan vurub. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən bildirilib ki, sel suları nəticəsində avtonəqliyyat vasitələrinin hərəkəti çətinləşib, yol çiyinləri yuyulub.

Əraziyə dərhal agentliyin xüsusi texnikaları və canlı qüvvəsi cəlb olunub, ərazidə əlavə təhlükəsizlik tədbirləri görülərək qısa müddət ərzində hərəkətin fasiləsizliyi təmin olunub.

Hazırda təbii fəlakət nəticəsində dəymiş ziyanın aradan qaldırılması istiqamətində işlər davam etdirilir.

# Qubaya bir gələn bir də gəlmək istəyir

**Bu yayın arxada qalan vaxtında havalar necə deyərlər, qeyri-sabit keçdi. Belə ki, çox isti günlər arada növbəsini yağışa-yağmura, küləyə verdi. Ancaq ulularımızın öyüdüdür ki, heç bir havaya "pisdir" deməzlər. Bunu hər gün Qubaya təşrif buyuran çoxsaylı yerli və xarici turistlərin əhval-ruhiyyəsində də görmək olar.**







Şahdağın ətəklərində və Qudyalçayın sahilində qərar tutan bu əsrarəngiz bölgəmizə ilin bütün fəsillərində səyahətə gələn minlərlə təbiət həvəskarına rast gəlmək mümkündür. Bu yay başlayandan bəri də paytaxtdan şimal istiqamətində istirahətə yollanan insanlar dağlarda və dərələrdə, tarixi qədim dövrlərə gedib çıxan yaşayış məskənlərində gəzib dolaşırlar. Çoxları da buraya təkrar yolu düşənlərdir. Çünki Qubaya bir dəfə gələn sanki ovsunlanır və bu füsunkar diyara yenə qayıdır. Bunun başlıca səbəblərindən biri ölkəmizdə turizmin inkişafı üçün geniş imkanların açılmasıdır. Sahənin inkişafına dövlət qayğısı onun daha da iri miqyasda genişlənməsini təmin edir.

Zəngin flora və faunaya, özünəməxsus təbiətə malik Quba bütün dövrlərdə qonaqlarını heyran edən məkan olsa da, insanların maraqla axışdığı turizm bölgəsinə son illərdə çevrilib. Paytaxtdan gəlib rayonun ərazisinə çatdıqda yolun sağındakı və solundakı mənzərələr insanı valeh edir. Dağ kəndləri turistləri xüsusilə özünə çəkir. Odur ki, Qubada əsasən dağ, kənd, çadır turizminin geniş yer alması təsadüfi deyil.

Turistlərin əsas marşrutlarından biri Xınalıq istiqamətindədir. Bu məkana turist axınını Xınalığın tarixi, qədim yaşayış məskənlərinin indiyədək qalması şərtləndirir. Əvvəllər kəndin yolu təmirsiz idi. Prezident İlham Əliyevin tapşırığı ilə Xınalığa gedən yol demək olar ki, yenidən tikildi. Eyni zamanda ətraf kəndlərə də yol çəkildi. Bu gün həmin kəndlərdə yeni turizm ənənələri yaradılır.

Haput, Qrız, Cek, Afurca, Gültəpə, Nügədi və digər kəndlərdə əsasən kənd turizmi genişlənir. May ayının axırlarından başlayaraq həmin kəndlərin ərazilərində yerləşən evlərin çoxu turistlər tərəfindən kirayə edilir. Təkcə Gültəpə kəndinə çəkilən yolda indi aramsız olaraq maşınlar şütüyür. Yerli sakinlər bildirirlər ki, 170 evi olan kəndin yarısında turistlər qonaqlanırlar. Bu da kənd sakinlərinin ailə büdcəsinə dəstəkdir. Hər gün bu kəndlərin mənzərələrini seyr edən, tarixi, etnoqrafiyası ilə maraqlanan neçə-neçə turistə rast gəlmək mümkündür. Çoxları isti yay günlərində iri qayaların, daş parçalarının yaxınlığında gəzib dolaşmaqdan yorulmur. Çadırlarda qalmağı özlərinə adrenalin sayanlar da az deyil.

Bu bölgədəki kəndlər qədim qalaları, tarix-mədəniyyət abidələri ilə də məşhurdur. Xalçaçılıq, misgərlik sənətləri davam etdirilir. Rayona gələn səyahət həvəskarları arasında bütün bunlara maraq göstərənlər də var. Səfər zamanı onlar hətta xalçaçılara yaxınlaşır və bəziləri xana arxasına keçərək öz ilmələrini də vurmaqdan zövq alırlar.

Beləliklə, istirahət və gəzinti üçün seçim boldur. Turistlərə bir sıra marşrutlar təklif olunur. Əsas olaraq Xınalıq götürülsə də, Qrız, Qəçrəş marşrutları da cəlbedicidir. Son illərdə Qonaqkənd istiqamətində yolların təmiri bu ərazilərdə də turist artımına səbəb olub. Eyni zamanda səfalı Möhüc, Tülər, Yenikənd kimi dağ kəndləri də yeni turist marşrutuna çevrilib. Təxmini hesablamalara görə, son aylarda Qubaya gələn turistlərin sayı 35 mindən çoxdur.

Qubada hotel turizmi də inkişaf etməkdədir. Bunu istifadəyə verilən hotel və SPA mərkəzlərində istirahət edənlərin sayının xeyli artması da göstərir.

Saysız-hesabsız təamlarla zəngin olan, turistlərə səliqəli şəkildə təqdim edilən Quba mətbəxinin isə yeri bambaşqadır. Bir çox istirahət mərkəzlərinin özlərinin hazırladıqları təamlar da var ki, bu da turistlər tərəfindən xoş qarşılanır və şifariş olunur. Hazırda menyuya hətta dünya ölkələrinin mətbəxindən bəzi nümunələr də daxil edilib.

Multikultural dəyərlərin hörmətlə qorunduğu Qubada azsaylı xalqların nümayəndələri də yaşayırlar. Tat, yəhudi, ləzgi, Ahıska türklərinin mədəniyyəti turizm sektoru üçün yeni məqamlar açıb. Onların tarixi kökləri ilə maraqlanan turistlər ilk növbədə Qubaya üz tuturlar.

Turistlərin böyük hissəsi Quba Memorial Soyqırımı Kompleksini ziyarət edir. Burada onlara beş dildə hazırlanmış kitablar paylanır. Bununla da səyahətçilər Azərbaycanda zaman-zaman törədilən soyqırımları, vəhşiliklər haqqında dəqiq məlumat əldə edirlər. Soyqırımı kompleksi azərbaycanlılara qarşı törədilən qətlamın canlı tarixidir.

İnformasiya texnologiyalarının inkişaf etdiyi indiki dövrdə hər bir turist istirahət etdiyi yerdən özünün yaşadığı şəhərə, rayona, yaxud ölkəyə xeyli maraqlı məlumat apara bilir. Şəkil, video və s. səfərdən yadigar qalır və turistlər onları təbii ki, öz çevrələrindəki insanlara göstərirlər. Beləliklə, həmin qohum və tanışlar da növbəti istirahətlərini planlaşdırarkən elə Qubanı seçirlər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Tovuz fermerləri taxıl istehsalında bu il də fərqləndilər



**Azərbaycanda əhalinin etibarlı ərzaq təminatında taxılçılıq əsas yerlərdən birini tutur. Çünki taxıl əhalinin çörək və çörək məmulatlarına olan tələbatını ödəyir.**

Odur ki, bu sahənin inkişafı daim dövlətimizin diqqət mərkəzində saxlanılmaqla, onun ildən-ilə artırılması üçün müxtəlif tədbirlər həyata keçirilir. Xüsusilə torpaq mülkiyyətçilərinə çoxsaylı güzəştlər edilir.

Ölkəmizin digər rayonları kimi, Tovuzda da bu quymətli ərzaq məhsulunun istehsalında hər il yüksək nailiyyətlər əldə olunur. Bu il də rayon taxılçılarının göstəriciləri yüksəkdir.

Qeyd edək ki, rayonda cari ilin məhsulu üçün 14 min 137 hektar sahədə taxıl əkilmişdi ki, bunun da təxminən 11 min 900 hektarı buğda, 2235 hektarı arpa olmuşdur. Həyata keçirilən yüksək aqrotexniki tədbirlər nəticəsində məhsuldarlıq əvvəlki ilə nisbətən xeyli sevindiricidir. Belə ki, buğdanın hər hektarından 33,3 sentner, arpanın hər hektarından isə 33,2 sentner məhsul götürüldü. Artıq bir neçə gündür ki, arpa biçini başa çatmışdır. Dağlıq ərazilərdə biçilməmiş 2 min hektar buğda sahəsi qalmışdır ki, bunun da əsas səbəbi hava şəraiti ilə bağlıdır. Yaxın günlərdə həmin ərazilərdə də biçin başa çatdırılacaq.

Tovuz Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, bu il tovuzlular sahələrdən 7 min 427 ton arpa, 33 min 555 ton buğda tədarük etmişlər ki, bu da əvvəlki ildəkindən xeyli çoxdur.

Rayonda taxılçılığın inkişafında nümunə olan çoxlu təsərrüfatlar var. Hər il olduğu kimi, bu il də "Aqro Dairy" MMC, "Tovuz Aqro" MMC, Tovuz "Aqrokompleks" MMC taxıl istehsalında fərqlənmişlər. "Aqro Dairy" MMC bu il rayonda ən yüksək göstəriciyə nail olmuşdur. Hər hektardan 51,4 sentner taxıl götürən məsul məsuliyyətli cəmiyyət bu rəqəmi son hədd hesab etmir. Kollektiv gələn il bu rəqəmi yeniləmək üçün indidən hazırlıq işlərinə başlamışdır.

Qeyd edək ki, hazırda məhsulu biçilmiş sahələrdə gələn ilin bol məhsulu üçün bünövrə qoyulur. Torpaq şumlanaraq əkin üçün yararlı hala salınır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## "Zaqatala AGRO İndustry" emal məntəqəsinə 600 tondan çox yaş tütün təhvil verilib

### Məhsulun qurudulub anbarlara yığılması davam edir

**Hazırda ölkəmizin şimal-qərb bölgəsində kənd təsərrüfatı işlərinin qızğın çağıdır. Havaların yağıntılı keçməsi bəzi sahələrə ziyan vursa da, tütünçülər bol məhsul yetişdirirlər.**

Yaponiyanın "Tet İnternational Development" şirkətinin törəmə müəssisəsi olan "Zaqatala AGRO İndustry" MMC tərəfindən bu il Balakən, Zaqatala, Qax, Şəki və Oğuz rayonlarında ümumilikdə 420 hektar sahədə "Virciniya MC291" növlü tütün əkilib. Hazırda şirkətin Zaqatala rayonunda fəaliyyət göstərən tütünqurutma məntəqəsində fermerlərdən yaş tütünün qəbulu davam edir. İndiyədək məntəqəyə istehsalçılardan 600 tondan çox yaş tütün kütləsi daxil olub.

"Zaqatala AGRO İndustry" MMC-nin direktoru Emin Əsədov bildirib ki, tütün istehsalı ilə bağlı cari ildə həmin rayonlarda 40 fermerlə müqavilə bağlanılıb. Əkin zamanı onlar müəssisənin istixana təsərrüfatında yetişdirilmiş tütün şitilləri ilə təmin olunublar. Eyni zamanda fermerlər şirkət tərəfindən verilmiş toxumla da öz təsərrüfatlarında şitil yetişdiriblər. Hazırda təsərrüfatlarda tütün sahələrinə aqrotexniki qulluq işləri davam etdirilir: "Cari mövsümdə MMC tərəfindən Balakən rayonunda 50 hektar, Zaqatalada 130 hektar, Qaxda 150 hektar, Şəkidə 70 hektar, Oğuz rayonunda isə 20 hektar sahədə tütün əkilib. İndiyədək təhvil verilən yaş tütünün 200 tonu birinci, 200 tonu ikinci, qalanı isə üçüncü növdür. Oğuzdan Xaləddin Alcanov, Arzu İsmayılov, Şəkidən Hacıxan Qəniyev, Qaxdan Həsən Abdullayev, Mehman Əhmədov, Zaqataladan Mustafa Qalayev, Rahib Kələşov, Balakəndən Şamsu Bayramova və digər fermerlər keyfiyyətli məhsul yetişdirməklə yanaşı, yüksək məhsuldarlığa nail olublar. Builki mövsümdə MMC-yə məxsus tütün sahələrindən 5 min tonadək yaşıl kütlə yığılması, ondan 800 ton quru tütün istehsal olunması proqnozlaşdırılır".



Xatırladaq ki, "Tet İnternational Development" şirkətinin Azərbaycanda 4 tütünqurutma müəssisəsi var. Bu müəssisələr Oğuz, Tovuz, Şəki və Zaqatala rayonlarında yerləşir. "Zaqatala AGRO İndustry" MMC bu müəssisələr içərisində ən böyüyüdür. Məntəqədə 120 tütünqurutma kamerası quraşdırılıb.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***






# Gənclik






● Dövlət qayğısı



# Gənclərin potensialından geniş istifadə olunur

**Millətin gələcək inkişafı onun gəncliyindən asılıdır. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların hazırlığından, onların aparıcı qüvvəyə çevrilməsindən keçir.**

Ulu Öndər Heydər Əliyev Azərbaycan gəncliyini yüksək qiymətləndirərək, ona inandığını, güvəndiyini bildirərək demişdir: "Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır".

Ümummilli Liderin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə gənc nəslə diqqətin göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Müxtəlif dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə 1994-cü il 26 iyul tarixli fərmanla Gənclər və İdman Nazirliyi yaradıldı. Ulu Öndərin imzaladığı bir çox sənədlər respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaratdı, bu siyasətin məqsəd, prinsip və istiqamətlərini, habelə təşkilati-hüquqi əsaslarını müəyyən etdi.

2003-cü ildə dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3 mindən çox azərbaycanlı gəncin təhsil almasının təşəbbüskarı da müdrik şəxsiyyət Heydər Əliyev idi. İllər keçdikcə dövlətin və cəmiyyətin inkişafında Azərbaycan gəncliyinin rolu da artdı. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". Heydər Əliyevin 2 fevral 1997-cidə imzaladığı sərəncama əsasən fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi.

Ümummilli Liderin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev də Azərbaycan gəncliyinin inkişafına daim diqqət və qayğı ilə yanaşır. Məhz dövlətin gənclərə güclü dəstəyi sayəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi daha da gücləndi. Gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatının yaxşılaşdırılmasına diqqət artırıldı.

Dövlət başçısının gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" və "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" dövlət proqramları xüsusi qeyd edilməlidir. Hazırda gənc kadrların irəli çəkilməsi dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. Bu məqsədlə 2019-cu ildən "Yüksəliş" müsabiqəsi təsis olunub. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasına xidmət edir. Gənclərə göstərilən qayğı onlara olan inam və etimaddan irəli gəlir.

2015-2025-ci illəri əhatə edən Azərbaycan gənclərinin İnkişaf Strategiyası uğurla icra olunmaqdadır. Hazırda ölkədə uğurlu dövlət gənclər siyasəti həyata keçirilir. Gəncliyimiz azad düşünür, demokratik cəmiyyətdə yaşayır, məhdudiyyətsiz olaraq fəaliyyət göstərir. Bütövlükdə ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü və ardıcıl siyasət nəticəsində gənclər demokratikləşmə prosesində, mədəniyyət, incəsənət, elm və idman sahəsində inamla irəliləyir, zəngin mədəni irsimizin qorunub saxlanması və inkişaf etdirilməsi yolunda mühüm addımlar atırlar. Prezident İlham Əliyev qloballaşma əsrində dünya elminə, təhsilinə inteqrasiyanı vacib sayaraq azərbaycanlı gənclərin xaricdə təhsil almasına ciddi əhəmiyyət verir. Burada məqsəd yeni düşüncəli, milli ruhlu gənclik formalaşdırmaq, dövlət idarəçiliyini yüksəkixtisaslı kadrlarla təmin etməkdir.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində zəruri tədbirlər həyata keçirilir. "Bədən tərbiyəsi və idman haqqında", "Gənclər siyasəti haqqında" qanunlar, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" Dövlət Proqramı da bu qəbildəndir.

Vətən müharibəsində gənclərimizin göstərdikləri qəhrəmanlıq, şücaət gəncliyə olan inam və etimadı daha da artırdı. Gənclərimiz ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüşlərdə canlarını fəda edərək xalqımızın qəhrəmanlıq salnaməsinin yeni səhifələrini yazdılar. Onların qəhrəmanlığının nəticəsi olaraq bu gün Azərbaycan dünyada qalib xalq statusuna sahiblənib, bütöv və suveren dövlət kimi tanınır. Bununla yalnız gənclərimiz yox, hər bir soydaşımız qürur və iftixar duyur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Məhəmməd Əmin Rəsulzadəyə həsr olunan kitab sərgisi hazırlanıb




**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası Azərbaycan Xalq Cümhuriyyətinin qurucu liderlərindən biri olan Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyinə həsr olunmuş virtual kitab sərgisini istifadəçilərə təqdim edib.**

Kitabxanadan bildirilib ki, virtual kitab sərgisində Şərqdə ilk demokratik respublikanın qurulmasında danılmaz xidmətləri olan Rəsulzadənin ədəbi yaradıcılıq nümunələri haqqında geniş məlumat verilib. Sərgidə M.Ə.Rəsulzadənin müəllifi olduğu və haqqında qələmə alınan "Azərbaycan müstəqillik üçün mübarizə yolunda", "Azərbaycan şairi Nizami", "Məhəmməd Əmin Rəsulzadə mətbuat haqqında", "Bir türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri", "Bir kərə yüksələn bayraq bir daha enməz!", "Əsrimizin Siyavuşu", "İran yazıları", "Son nəfəsədək Azərbaycan", "Bakı və Azərbaycan tarixinə dair əsərlər", "Rəsulzadə xatirələri" kimi 30-a yaxın kitabın qısa annotasiyası təqdim olunub. Materialda Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan, hürriyyət və istiqlal haqqında söylədiyi fikirlər, səs yazıları da yer alıb.

● Ölməzliyə qovuşanlar

# Yaxınları onun qəhrəmanlığı ilə fəxr edirlər

**Erməni qəsbkarları 27 sentyabr 2020-ci ildə təxribat törədib torpaqlarımıza hücum çəkəndə Vətən qeyrəti çəkən oğullarımız yurdumuzun müdafisinə qalxdılar.**

44 günlük Vətən müharibəsində iştirak edən, erməni işğalçılarına qarşı cəsarətlə vuruşan oğullarımızdan biri də İbrahimli Kənan Azad oğlu idi. Yoldaşları arasında səmimiyyəti, ziyalılığı ilə seçilən Kənan İbrahimlinin Qarabağda şücaət göstərəcəyinə bəlkə də doğmalarından başqa heç kim inanmazdı. Amma o, - sakit təbiətli, mülayim xarakterli, nümunəvi davranışı, tərbiyəsi ilə fərqlənən Kənan Vətən müharibəsində igidliyinə görə çoxlarına örnək oldu. Erməni qəsbkarları ilə cəsarətlə döyüşdü, üzərinə düşən döyüş tapşırığını bacarıqla yerinə yetirdi. İndi doğulduğu kəndin təkcə yaşlıları, cavanları yox, uşaqları da Kənanın qəhrəmanlığı ilə öyünüb fəxr edirlər...

İbrahimli Kənan Azad oğlu 1999-cu il mayın 28-də Cəlilabad rayonunun Adnalı kəndində dünyaya göz açıb. 2005-ci ildə məktəbə gedib. Dərslərə böyük maraq göstərib. Mülayim xasiyyəti ilə başqalarından seçilib. Mədəniyyəti ilə yaşıdları arasında sevilən bu sakit oğlan orta məktəbin təhsili ilə kifayətlənməyib. Təhsilini Masallı Dövlət Regional Kollecində davam etdirib. Sabahın bacarıqlı mütəxəssisi olmaq üçün yeni-yeni biliklərə yiyələnib.

Kənan İbrahimli 2017-ci ilin iyulunda hərbi xidmətə çağırılıb. Həmin ayın 15-də Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanıb. Oxuduğu təhsil müəssisələrində seçildiyi kimi, hərbi xidmətdə də fərqlənməyi bacarıb. Xidmətinin ilk günlərindən minaatan qurğusunun sirlərinə dərindən yiyələnməyə başlayıb. Təlimlərdə fəal iştirak edən Kənan kifayət qədər döyüş təcrübəsi toplayıb. Xidmətdə fərqləndiyinə görə dəfələrlə komandanlıq tərəfindən fəxri fərmanlarla mükafatlandırılıb.

Həqiqi hərbi xidmətini 2019-cu ilin yanvarında başa vuran Kənan İbrahimli yenidən tələbəlik həyatına qayıdıb, yarımçıq qalmış təhsilini davam etdirib. Erməni işğalçılarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda yenidən ordu sıralarına yazılıb.

Sentyabrın 27-də döyüşlərin ilk günündən ordu sıralarında olan Kənan Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən ağır döyüşlərdə iştirak edib. Hadrutun azadlığı uğrunda cəsarətlə vuruşub. Həmişə döyüş yoldaşlarına ürək-dirək verib, onları qələbəyə ruhlandırıb. Ön mövqedə 4 nəfərlə düşmənə qarşı vuruşarkən İbrahimli Kənan Azad oğlu şəhidlik zirvəsinə ucalıb. Şəhidimizin peşəkarlığı və ayıq-sayıqlığı nəticəsində düşmən geri oturdulub. Kənan ölümü ilə bir neçə hərbçi yoldaşını xilas edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq fərmanı ilə döyüşlərdə göstərdiyi igidliyə və cəsarətə görə ölümündən sonra İbrahimli Kənan Azad oğlu "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

Əsgər Kənan İbrahimli kimi cəsur oğullar heç vaxt unudulmayacaq. Azərbaycan xalqı onları həmişə hörmətlə xatırlayacaq. Yaxınları, dost-tanışları bu igidlərin qəhrəmanlığı ilə həmişə fəxr edəcəklər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● İstedadlar

# Musiqinin sehrində

## Klassik əsərlər gənc pianoçunun ilham mənbəyidir



**Öncə onun uşaq diqqət və marağını metro çəkdi - vaqonlar üzərindəki nömrələr və stansiyalararası səsləndirilən musiqi... Sonra yelləncəkdə "uçuşlar" zamanı asqı zəncirləri və küləyin harmonik pıçıltısı, evlərinin yanındakı neft vışkasında qazma qurğusunun nizamlı hərəkəti, çiçəklər üzərinə qonan arıların əmək nəğmələri və sair.**

Bütün bunlar sehrli dünyanın ilham mənbələri idi. Beləcə, gördüklərini, dinlədiklərini, sevdiklərini əzbərlədi, yaddaşına yazdı. Möcüzəli rəqəmlərin cazibəsində süsləndi, bəyəndiyi mahnı parçalarını zümzümə etməyə başladı. Və tədricən ətraf aləm balaca Hüseyn üçün say-sıra toplusu və melodiya çələnginə, kaleydoskopa çevrildi. Oğlunda musiqiyə həvəsi görən atası İkram ad günündə sentizator hədiyyə aldı, bununla da Quliyevlər ailəsində bir istedadın aşkarlanması, gələcək arzuların reallaşması istiqamətində qəti və inamlı qədəmlər atılmağa başlandı.

"Onun bütün marağı rəqəmlərə və musiqiyə, eləcə də bunlarla əlaqəli sahələrədir. Nə tez-tez apardığımız kukla teatrına, nə həmyaşıdları ilə oynamağa, nə də başqa əyləncələrə... Qələbəlikdən qaçanda, bəzən təkliyə çəkiləndə səhhəti ilə bağlı qorxar, narahat olardıq, sonra gördük ki, bu, özünü daha rahat bildiyi, sərbəst ifadə bacarığı qazandığı, düşüncələrə və axtarışlara ayırdığı vaxt, zaman kəsiyidir. Uşaqlıqdan dəqiq riyazi hesablamalar bacarığı və dərin musiqi duyumu var. Qərara gəldik ki, övladımızı yaradıcılıq, incəsənət kurslarına yönəldək, bacarıqlarını yoxlayaq", deyir anası Aygün xanım. Kurslarda təcrübəli fortepiano pedaqoqu İlahə Məmmədova Hüseynlə ciddi məşğul olur, musiqi vərdişlərinin təkmilləşməsinə kömək edir. Artıq 7-8 yaşlarından istedadlı azyaşlı "yutub" və digər sosial şəbəkələrdə dinlədiyi klassik Azərbaycan və Avropa bəstəkarlarının əsərlərinə maraq göstərir. İlahə xanımın tövsiyəsi ilə onun Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) nəzdində Musiqi məktəb-studiyasına yönləndirilməsi isə peşəkar mühitlə ünsiyyət, qaynayıb-qarışmaq demək idi. Həmin təhsil ocağında Hüseyn təcrübəli pedaqoq, Əməkdar müəllim Nərgiz Mansurova və talantlı pianist Fəqan Həsənlinin qayğı və tədrisi ilə əhatələnir.

Bizimlə həmsöhbət olan BMA məktəb-studiyasının direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aytən İbrahimova istedadlı tələbəsi Hüseynin yaradıcılıq imkanlarından, bilik və bacarığından, unukal xarakterik xüsusiyyətlərindən danışdı. Valideynlərinin və müəllimlərin onun bir pianoçu kimi formalaşmasında, kamilləşməsində xüsusi zəhmətlərini vurğuladı, fərdi hazırlıq zəminində öz üzərində ciddi işləyərsə, sabahın layiqli musiqiçisi olacağını, vətənimizi nüfuzlu beynəlxalq festivallarda yüksək səviyyədə təmsil edəcəyini bildirdi: "Artıq indidən bir çox müsabiqələrin iştirakçısı və birinci mükafatçısı olan Hüseyn Quliyevin yaxşı perspektivləri var. Biz onu gələcəkdə möhtəşəm arenalarda, dünyamiqyaslı mükafatların laureatı məqamında görürük".

Gənc Hüseyndən nə ilə məşğul olduğunu soruşduqda, "Fikrət Əmirovun "miniatür" və "variasiya"ları, eləcə də İohan Baxın Do minor prelüd və fuqası, Bethovenin "5-ci Sonata"sının ifası üzərində işləyirəm" - deyə cavab verdi: "Bilirsiniz, fuqaları çox sevirəm, doğrudur, əvvəl çox çətin idi, ancaq dərinliyinə vardıqca çox xoşuma gəldi. Piano ifaçılığı ilə yanaşı, arabir musiqi parçaları da yazıram. Amma hələ tam deyil, yarımçıqdır. Müəllimlərim baxıb, dəyərləndirib və məsləhətlərini veriblər. Görək, nə çıxacaq..." Ən çox sevdiyi bəstəkarlar da elə Fikrət Əmirov, İ.S.Bax, F.Şopen, L.Bethoven, F.Listdir.

Quliyev Hüseyn İkram oğlu 2011-ci ildə sadə, zəhmətkeş ailədə dünyaya göz açıb. Binəqədi rayonu 179 saylı tam orta məktəbin VII sinif şagirdidir.

Hüseynin uşaqlıq hobbisi həm də bayraq toplamaq olub. Yaşadığı evdə 70-dən çox müxtəlif ölkənin bayraqlarını saxlayır. Həmin kolleksiyada ilk və ən uca yerdə isə çox sevdiyi Vətəninin - Azərbaycanın Bayrağı asılıb.

Gənc istedada gələcəyin mötəbər musiqi yarışmalarında üçrəngli bayrağımızı dalğalandırmağı arzulayırıq!

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

# "Gənc bərpaçıların inkişafı üzrə tədris proqramı"na dair Anlaşma Memorandumu imzalanıb

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) və "Atelier Erich Pummer" şirkəti arasında "Gənc bərpaçıların inkişafı üzrə tədris proqramı" haqqında Anlaşma Memorandumu imzalanıb. Bu barədə Qoruq idarəsindən bildirilib.**






Anlaşma Memorandumu müvafiq olaraq "İçərişəhər" DTMQİ-nin İdarə Heyətinin sədri Şahin Seyidzadə, AzMİU-nun rektoru Gülçöhrə Məmmədova və "Atelier Erich Pummer" şirkətinin rəhbəri, bərpaçı-memar Erix Pummer tərəfindən imzalanıb.

Sözügedən proqramın məqsədi gənc bərpaçıların akademik, praktiki bilik və səriştələrinin artırılması, onlara beynəlxalq təcrübənin aşılanması məqsədilə tərəfdaşların səylərini birləşdirməkdir.

İmzalanmış üçtərəfli Anlaşma Memorandumuna əsasən, tərəfdaşlar tərəfindən "Gənc bərpaçıların inkişafı üzrə tədris proqramı"nın iştirakçıları üçün İçərişəhərdə nəzəri və praktiki məşğələlərin tədrisi moduluna başlanılacaqdır. Tədris modulunda Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Memarlıq abidələrinin bərpası və mühafizəsi" ikili diplom magistr dərəcəsi üzrə təhsil alan tələbələrlə yanaşı, Tarixi Abidələrin Bərpası Məktəbinin (Mak'TAB) dinləyiciləri də iştirak etmək imkanı əldə edəcəklər. Qeyd edək ki, Mak'TAB gənc bərpaçılara qabaqcıl bərpa metodlarının təlimi üzrə təcrübənin öyrədilməsini həyata keçirir.

Anlaşma Memorandumundan irəli gələn bu vacib əməkdaşlıq nəticəsində qarşıya qoyulan hədəf gənc bərpaçı milli kadr potensialının gücləndirilməsi, beynəlxalq tələblərə cavab verən yerli mütəxəssislərin yetişdirilməsi, eləcə də ölkənin zəngin tarixi-mədəni irsinin qorunması, xüsusilə işğaldan azad edilmiş Qarabağ bölgəsində aparılan bərpa işlərinə dəstək olmaq və töhfə verməkdir.

# Lənkəranda əlil uşaqların valideynləri ilə görüş keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Lənkəranda 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqların valideynləri üçün maarifləndirici tədbir keçirilib.**



Agentliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, görüşdə iştirakçılara həmin kateqoriyadan olan uşaqlara göstərilən stasionar və yarımstasionar xidmətlər, onlarla aparılan sosial iş və sosial reabilitasiya tədbirləri barədə məlumatlar verilib. Həmçinin tədbirdə Sosial Xidmətlər Agentliyinin sifarişləri əsasında həssas əhali qruplarından olan şəxslər üçün hazırlanan mobil tətbiqlər ("Autizmders", "Övladını tanı", "Danışan kitab", "Serebralders" və b.) barədə də bəhs olunub.

Valideynlərə sosial reabilitasiyanın uşaqların həyatında rolu, bu sahədə onların hüquqları haqqında biliklər aşılanıb, lazımi istiqamətlər verilib.

Görüşün yekununda valideynlərin sualları cavablandırılıb.

PARİS 2024



# XXXIII Paris Yay Olimpiya Oyunları

AZERBAIJAN

# İKİNCİ QIZIL

## Parisdə növbəti dəfə Azərbaycan bayrağı zirvədə dalğalandı

*Əvvəli 1-ci səh.*







Azərbaycan millisinin Yay Olimpiya Oyunlarında medal ümidlərindən sayılan və 100 kq çəki dərəcəsində yarışan Zelim Kotsoyev 1/8 finalda Polşa idmançısı Pyotr Kuçera ilə qarşılaşıb. Təmsilçimiz ilk görüşündə ipponla qalib gələrək 1/4 finala yüksəlib. Bu mərhələdə onun rəqibi israilli Peter Palçik olub. Dünya çempionumuz bu görüşü də qalib başa vuraraq adını yarımfinala yazdırıb.

Cüdoçumuz finala gedən yolda özbəkistanlı Muzaffarbek Turoboyevlə qarşılaşıb. Rəqibinə qalib gələn idmançımız adını finala yazdırıb.

Kotsoyev çempionluq görüşündə gürcüstanlı İlya Sulamanidze ilə güləşdən qalib ayrılaraq Olimpiya çempionu ünvanına sahib olub.

Qeyd edək ki, Zelim Kotsoyev hazırda öz çəkisində dünya reytinqində 1-cidir. Osetiyalı milliləşdirilmiş legionerimiz 2023-cü ilin noyabrında Avropa, 2024-cü ilin mayında isə dünya çempionu olub.

Z.Kotsoyev ilk növbədə Azərbaycan xalqını təbrik edib: "Bilirəm ki, çoxları məni dəstəkləyirdi, azarkeşlik edirdi. Bu qələbə komanda yoldaşlarım, ailəm, dostlarım üçündür. Biz yalnız özümüz üçün yarışsaydıq, bu qədər motivasiyamız olmazdı. Bilmirəm nə deyim. Sən bütün həyatın boyu ona doğru gedirsən və ... indi bilmirəm bunu necə şərh edim. Çox şadam".

İdmançımız Parisdə daha əvvəl qızıl medal qazanan komanda yoldaşı Hidayət Heydərovun ona çox dəstək olduğunu söyləyib: "Hidayətlə bizim çox yaxşı əlaqəmiz var. Birlikdə məşq edirik, birlikdə istirahət edirik. 2 gün əvvəl o, çempion olanda çox sevinirdim. Hidayətin çempionluğu mənim üçün ikiqat motivasiya oldu. Dünən gecə yatmamışdan öncə mesaj yazdı, dedi ki, heç nə düşünmə, sadəcə, tatamiyə çıx və bacardığını et. Uğurumda şəxsi məşqçim Elxan Məmmədovun, eləcə də millinin baş məşqçisinin də böyük rolu var. Federasiya rəhbərliyi bizə hər cür dəstək olur. Mən idmançılarla bu cür ünsiyyət quran, onlara dəstək olan federasiya prezidenti görməmişəm. Böyük komandamız var. Necə işlədiksə, elə də nəticə qazandıq".

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Gimnastımız mübarizəyə qoşulur



**Bu gün "Paris-2024" Yay Olimpiya Oyunlarında batut gimnastikası üzrə yarışlar keçiriləcək.**

İştirakçıların təsnifat mərhələsində çıxış edəcəkləri sıralama bəlli olub. Olimpiadalar tarixində ilk dəfə bu növdə təmsil olunacaq Azərbaycan idmançısı Selcan Maqsudova da sıra nömrəsini bilib. O, 14-cü çıxış edəcək.

Ümumilikdə isə təsnifat mərhələsində 16 gimnast mübarizə aparacaq. Yarış Bakı vaxtı ilə saat 14:00-da başlayacaq. 8 ən yaxşı gimnast final mərhələsinə adlayacaq. Mükafatlar uğrunda həlledici raund saat 15:50-də start götürəcək.

Qeyd edək ki, "Paris-2024"ün batut gimnastikası yarışları bir günü əhatə edəcək.

## Dünya türkiyəli atıcıdan danışır

**Türkiyəli atıcı Yusuf Dikeç Paris Olimpiadasındakı çıxışından sonra sosial şəbəkələrdə populyarlıq qazanıb.**



51 yaşlı idmançı 10 metr məsafəyə pnevmatik tapançadan qarışıq cütlük yarışında gümüş medal qazanıb.

İdmansevərlər Dikeçin xüsusi avadanlıqdan istifadə etməməsinə diqqət ediblər. O, eynək taxaraq yarışıb. Baxmayaraq ki, atıcılar parıltının qarşısını almaq və hədəfi yaxşılaşdırmaq üçün xüsusi eynəklərdən, həmçinin səs-küyü aradan qaldıran qulaqlıqlardan istifadə edə bilərlər.

Qeyd edək ki, Yusuf Dikeç artıq beş dəfə Olimpiya Oyunlarında iştirak edib, lakin ilk medalını Parisdə qazanıb.

## Olimpiya çempionu Senadakı suyun keyfiyyətini ələ salıb

**Açıq suda üzgüçülük üzrə Olimpiya çempionu Şaron van Rauvendaal zarafatla deyib ki, idmançılar Sena çayında üzdükdən sonra "Üzüklərin Rəbbi" kitablarının və filmlərinin məşhur personajı Qolluma çevriləcəklər. İdmançı memini X sosial şəbəkəsindəki səhifəsində yayımlayıb.**




Fotoda Qollum Senadan çıxır və jurnalistə müsahibə verir. Van Rauvendaal şəklin altına "Sudan belə çıxmağımıza 9 gün qalıb" yazıb.

Bu paylaşım bir gün ərzində 44,5 min baxış və 500-dən çox bəyənmə toplaya bilib. Nəhayət, iyulun 31-də Parisdə Sena boyunca ilk üzgüçülük yarışı baş tutub. Bundan əvvəl çay suyunun çirklənməsi səbəbindən triatlonçuların məşqləri və yarışları bir neçə dəfə ləğv edilib.

## Badmintonçumuz həyəcanlı olduğunu etiraf etdi



**"Ardıcıl olaraq ikinci Olimpiadada hazırda "Top-3"də qərarlaşan Antonsen kimi güclü badmintonçu ilə qarşılaşdım". Bunu Azərbaycan Olimpiya yığmasının badmintonçusu Edi Reski Dviçayo deyib.**

Qrup mərhələsində mübarizəni dayandıran Azərbaycan idmançısı ilk setin həyəcan üzündən çətin keçdiyini bildirib: "İstər-istəməz həyəcan var idi. İlk setdə bu baxımdan çətin oldu. İkinci setdə isə daha yaxşı çıxış etdim. Lakin rəqibin təcrübəsi daha çoxdur. Püşkdən şikayətlənə bilmərəm. Olimpiadada uğur qazanmaq istəyirsənsə bu səviyyədə rəqiblərlə oynamağa hazır olmalısan".

Qeyd edək ki, Dviçayo qrup mərhələsinin ilk görüşündə avstriyalı Kollins-Valentin Filimona qalib gəlsə də, danimarkalı Anders Antonsenə uduzaraq yarışla vidalaşıb.



## Almaniyalı tennisçidən vida

**Almaniyalı tennisçi Anjelika Kerber peşəkar karyerasını başa vurub. O, sonuncu oyununu "Paris-2024"də keçirib. "Böyük Dəbilqə" yarışlarının 3 qat qalibi 1/4 finalda mübarizəni dayandırıb. Kerber gərgin mübarizədə çinli Cjen Sinvenə uduzub - 1:2 (7:6 (7:4), 4:6, 6:7 (6:8)).**

36 yaşlı tennisçi Avstraliya "Open-2016", "US Open-2016" və "Uimbildon Open-2018" yarışlarında qələbə qazanıb. Anjelika "Rio-2016" Olimpiadasının gümüş mükafatçısıdır. O, karyerası ərzində WTA turnirlərində 14 titula sahib çıxıb.

## Şimali Koreya və Cənubi Koreyadan olan mükafatçılar selfi çəkdiriblər

**KXDR, Cənubi Koreya və Çindən olan qarışıq cütlüklər üzrə Olimpiya stolüstü tennis turnirinin medalçıları yarış başa çatdıqdan sonra podiumda birgə selfi çəkdiriblər. Bir gün əvvəl stolüstü tennis üzrə qarışıq cütlüklərin medalları oynanılıb.**



Çinli Vanq Çuqin və Sun Yinqşa qızıl, KXDR-dən Ri Çon Sik və Kim Kum Yonq gümüş, Cənubi Koreyadan Lim Çonq-hun və Şin Yu-bin isə bürünc medal qazanıblar.

Mükafatlandırılma mərasimində şimali və cənubi koreyalı idmançılar əlsıxma zamanı bir-birlərinə yüngülcə toxunaraq, Koreya dilində "təbriklər" deyiblər və Limin BOK-un tərəfdaşı tərəfindən təqdim edilən Samsung Galaxy telefonu ilə selfi çəkdiriblər. "The Korea Helard" qəzeti yazır ki, Lim sonradan KXDR-dən olan rəqiblərinə artıq heç nə demədiyini söyləyib.

Qeyd edilir ki, ölkələr arasında münasibətlərdə yaranan gərginlik səbəbindən idmançıların mükafatlandırma mərasimində davranışları ilə bağlı bəzi narahatlıqlar olub. 2023-cü ildə KXDR komandası Xançjouda keçirilən Asiya Oyunlarında əlsıxma və birgə fotoşəkillər zamanı cənubi koreyalılarla eyni tərzdə soyuqqanlı davranıb.

# Parisdə olimpiyaçılar zəhərləndilər

## Sena çayında üzən atletlərin əksəriyyətinin halı pisləşib

**Paris Olimpiadası başlayandan bəri hələ qalmaqal yaşanmayan gün olmayıb. Olimpiya Oyunlarının yumşaq desək, çox qəribə, əslində isə biabırçı açılışı ilə bağlı ehtiraslar səngiməmiş yeni xoşagəlməz hadisələr baş verməkdə davam edir.**









Məsələn, Britaniya komandası qida çatışmazlığı və keyfiyyətsiz yemək səbəbindən Olimpiadaya öz aşpazını gətirir. Pedofiliyaya görə məhkum olunmuş idmançı Olimpiadaya vəsiqə əldə edir və ən mötəbər yarışların iştirakçısına çevrilir. Daha güclü yumruqları olan iki transseksual döyüşçü qadın boksçulara qarşı rinqə çıxır...

Oğurluq, soyğunçuluq və təcavüz halları da Olimpiya Oyunlarının bir növ ayrılmaz tərkib hissəsinə çevrilib.

Fransa paytaxtında axan məşhur Sena çayının bulanıq suları mövzusu isə son zamanların dillər əzbəridir. Və budur, həmin mövzuda daha bir xoşagəlməz xəbər: Sena çayında triatlon növünə daxil olan üzgüçülük yarışı keçirildikdən sonra idmançıların halı pisləşib. Bəzi atlerlərdə qusma əmələ gəlib və bütün bu hallar canlı yayımda göstərilib.

Kanada komandasının nümayəndəsi Tayler Mislavçuk ən azı 10 dəfə qusduğunu bildirib. Bəziləri, məsələn qazaxıstanlı triatlonçu Yekaterina Şabalina hətta yarışı tərk etməli olublar.

Bundan əvvəl suyun keyfiyyətinin aşağı olması səbəbindən yarış bir gün təxirə salınmışdı, lakin 24 saat ərzində həyat üçün təhlükəli bakteriyaların aşıb-daşdığı Sena çayının sularının normal vəziyyətə düşməyəcəyi hamıya aydın idi.

Hələ iki il öncə məlum idi ki, Parisin bütün çirkab sularının axıdıldığı Sena çayında üzmək sağlamlıq üçün təhlükəlidir. İdmançılar və ictimaiyyət həyəcan təbili çalırdı, lakin səlahiyyətlilər söz verirdilər ki, əsas şəhər arteriyası təmizlənəcək. Bunun üçün milyardlarla avro ayrılıb. İndi isə vəziyyət göz önündədir: həmin pulların hara xərcləndiyi bəlli deyil.

Bu hadisə bir daha nümayiş etdirir ki, Makron hökuməti üçün idmançıların və ümumən insanların sağlamlığı məsələsi prioritet təşkil etmir. Bunu yarışlar zamanı adi içməli suya möhtac qalan daha bir olimpiyaçı - amerikalı tennisçi Daniel Kollinz də təsdiqləyib. O, Paris Olimpiadasındakı şəraitdən şikayətlənərək bildirib ki, Fransada idmançıların sağlamlığı prioritet deyil.

Oyun zamanı sağlamlığında ciddi problemlər yaranan 30 yaşlı idmançı Olimpiada təşkilatçılarını kifayət qədər soyuq su şüşələrinin olmamasında ittiham edib: "Kortdan çıxanda az qala huşumu itirdim, sonra üç saat tibbi masanın üstündə qalmışam. Bu, səhhətimə çox pis təsir etdi. Bütün bədən qıc olanda, günvurmadan əziyyət çəkəndə, çıxış etmək çox çətindir".

Qeyd edək ki, Daniel Kollinz Olimpiya tennis turnirinin 1/4 finalında İqa Sviateklə görüşünü məlum səbəblərdən başa vura bilməyib. O, üçüncü setdə kortu tərk etməyə məcbur olub.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Azərbaycan İlahiyyat İnstitutunda müsahibə mərhələsi başlayıb

**Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 1 avqust 2024-cü il tarixində III ixtisas qrupu üzrə bakalavr pilləsinin "İslamşünaslıq" ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün müsahibə mərhələsi başlayıb. Müsahibə mərhələsi avqustun 3-dək davam edəcək.**



Abituriyentlərin müsahibədə iştirak etməsi üçün ərizə qəbulu 22-28 iyul 2024-cü il tarixlərində Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən aparılıb və bu müddət ərzində 104 nəfər qeydiyyatdan keçib.

Qeyd edək ki, abituriyentlərin dünyagörüşü səviyyələrinin və "İslamşünaslıq" ixtisasına maraqlarının müəyyənləşdirilməsi məqsədilə DİM tərəfindən Dini-Psixoloji Komissiya (DPK) yaradılıb. Komissiyanın tərkibinə ilahiyyat sahəsi üzrə mütəxəssislər, həmçinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Azərbaycan İlahiyyat İnstitutunun və DİM-in əməkdaşları daxil ediliblər.

Müsahibədə abituriyentin dünyagörüşü və dini bilikləri, dini baxışları, dünyəvilik anlayışı, psixoloji parametrlərinin "İslamşünaslıq" ixtisasına uyğunluğu, tolerantlıq və multikulturalizm təsəvvürləri yoxlanılır.

Müsahibədən uğurla keçən abituriyentlər seçim zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq" ixtisasını da seçə biləcəklər.

Müsahibə mərhələsinin nəticəsindən narazı qalan abituriyentlər apellyasiya müraciəti edə bilərlər. Apellyasiya Komissiyası tərəfindən müraciətlər yalnız abituriyentin müsahibədə iştirak etdiyi gün qəbul edilir.

Məlumat üçün bildiririk ki, Azərbaycan İlahiyyat İnstitutunda təhsil tam ödənişsizdir. Ali təhsil müəssisəsi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyət sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin edilməsi məqsədilə müasir təhsil standartları və müvafiq sahədə dünya təcrübəsi əsasında fəaliyyət göstərir.

***"Azərbaycan"***

# Hansı qidalar orqanizmdəki iltihabı azaldır?

**Hər bir insanda görülə bilən iltihab immunitet sisteminin orqanizmi müxtəlif xəstəliklərdən müdafiə edərək qıcıqlandırıcıya qarşı verdiyi reaksiyadır.**

Yad cisimlərin vurduğu zədələr, kimyəvi maddələrin və radiasiyanın təsiri, bakteriya, virus və göbələklər iltihablanmaya səbəb ola bilər. Onun əsas əlamətləri qızartı, istilik, şişkinlik və ağrılardır. Zamanında müvafiq tədbirlər görülməsə, iltihab xroniki hal ala bilər. Xroniki iltihabi xəstəliklər isə ölümlə nəticələnə bilər.

Aparılan araşdırmalar göstərir ki, fərdin həyat tərzi ilə orqanizmdəki iltihab səviyyəsi arasında əlaqə var. Belə ki, qanda CRP (qaraciyərdə istehsal olunan zülal) səviyyələri yüksək olan insanlar fiziki olaraq hərəkətsizdirlər, yüksək qan şəkəri səviyyəsinə malikdirlər və sağlam qidalanma vərdişləri yoxdur.

### İltihab əleyhinə qidalanmanın faydaları

Mütəxəssislər bildirirlər ki, düzgün qidalanma vərdişləri ilə orqanizmdəki iltihabı azaltmaq mümkündür. İltihab əleyhinə qidalanmanın bir çox faydası var.

Xroniki xəstəliklərin qarşısının alınması. İltihab əleyhinə qidalanma ürək xəstəliyi, diabet və bəzi xərçəng növləri kimi xroniki xəstəliklərə yaxalanma riskini azaldır.

İmmunitet sisteminə dəstək. Antioksidant, vitamin və minerallarla zəngin qida rasionu hüceyrə zədələnmələrinin qarşısını alır, immunitet sistemini gücləndirir və orqanizmin infeksiyalara qarşı müqavimətini artırır.

Psixi sağlamlıq. İltihab əleyhinə qidalanma depressiya və narahatlıq kimi psixi sağlamlıq problemlərinin simptomlarını azaldır.

Dəri sağlamlığı. Bu qida rasionu dərideki iltihabı azaldır və daha sağlam dəri görünüşünü təmin edir.

### İltihabı azaldan məhsullar

Yaşıl yarpaqlı tərəvəzlər. İspanaq, kələm və pazı kimi yaşıl yarpaqlı tərəvəzlər antioksidant və vitaminlərlə zəngindir. Bu bitkilərdə iltihabla mübarizədə təsirli olan flavonoidlər var. E vitamini mənbəyi olan ispanaq, həmçinin alfa-linolenik turşusuna malikdir. Bu turşu iltihablanmadan qaynaqlanan ağrıları kəsir.

Yağlı balıq. Somon, sardina və skumbriya kimi yağlı balıqlar omeqa-3 ilə zəngindir. Omeqa-3 iltihabla mübarizədə və ürək sağlamlığını dəstəkləməkdə mühüm rol oynayır.

Zeytun yağı. Antioksidantlarla zəngin zeytun yağı iltihabı azaltmağa kömək edir. Gündəlik qida rasionuna zeytun yağını əlavə etmək orqanizmdə iltihabın azalmasına səbəb olar. İltihabqurutma xüsusiyyətinə malik zeytun yağının təsirini görmək üçün onun təbiiliyindən və keyfiyyətindən əmin olmaq lazımdır. Hər səhər bir yemək qaşığı zeytun yağı qəbul etmək sağlamlığa müsbət təsir edə bilər.

Çiyələk, böyürtkən və moruq. Bu giləmeyvələr antioksidantlar və C vitamini ilə zəngindir. Antioksidantlar iltihabı azaldır və hüceyrə zədələnməsinin qarşısını alır.

Qoz. Aparılan araşdırmalara görə, gündə 50 qram qoz yemək orqanizmdən iltihabı xaric edir, qanda CRP miqdarını azaldır. Bu da ürək problemlərini aradan qaldırmağa kömək edir. Qozun faydalarını maksimum əldə etmək üçün, axşamdan bir stəkan suya 3 ədəd qoz əlavə edib səhər acqarına içmək lazımdır. Bu qarışıqdan hər gün istifadə etmək olar.

Sarıkök. Hindistanın yemək mədəniyyətinin önəmli bir parçası olan sarıkök tərkibindəki kurkumin maddəsi sayəsində iltihab əleyhinə təbii antioksidant kimi çıxış edir. Kurkumin iltihablanmaya səbəb olan fərqli molekulyar quruluşların hərəkətini məhdudlaşdırır. Bu ədviyyat oynaq iltihabı və əzələ burxulması kimi xəstəliklərin müalicəsində təsirlidir. Sarıkökü şəfa məqsədi ilə qəbul etmək üçün onu hər sabah çay qaşığı ilə bir stəkan su və ya ilıq südə qatıb içmək lazımdır. Bu içkini həftədə 3 dəfə qəbul etmək yetərlidir.

Zəncəfil. Tərkibindəki gingerol adlı maddə sayəsində təbii iltihab quruducu hesab edilən zəncəfildən mütəmadi olaraq istifadə etmək revmatizm ağrılarını azaldır, ödəmi yox edir. O, toz və kök formasında istifadə edilə bilər. Zəncəfil həm də qan durulducu olduğu üçün onu qəbul etməzdən əvvəl mütləq həkimlə məsləhətləşmək lazımdır.

Sarımsaq. Tərkibindəki maddələr sayəsində iltihab əleyhinə vasitə olan sarımsaq bəzən qoxusuna görə çox istifadə edilmir. Bunun qarşısını almaq üçün sarımsağı xırdalayıb su ilə içmək olar. Sarımsaq tozu və sarımsaq yağı kimi məhsullar iltihab əleyhinə çox effektivdir.

Reyhan. İltihaba qarşı mübarizə aparan bitkilərdən biri də reyhandır. Bitkiyə xüsusi dadı və qoxunu verən maddə "eugenol"dur. Reyhanı rasiona daxil etmək orqanizmin iltihablanmaya qarşı güclənməsini təmin edir.

Gicitkən. Gicitkən orqanizmdəki toksinlərin böyrəklər tərəfindən atılmasını sürətləndirir. Eyni zamanda mövcud iltihablanmanın həcmini azaldır, ağrıkəsici kimi təsir edir.

Limon. C vitamini qaynağı olan limon orqanizmi mikroblara qarşı qoruyur. Bağırsaqları və qanı təmizləyir.

Nar suyu. Orqanizmi yoran və zərər verən iltihablanmanı aradan qaldırmaq üçün antioksidantlarla zəngin qida rasionu olmalıdır. Belə qidalardan biri, bəlkə də birincisi məhz nar suyu hesab edilir.

Darçın. "Şəfa deposu" hesab edilən darçın antioksindantlar sayəsində damarları təmizləyir. Orqanizmdə olan iltihabı yox edir.

Unutmamaq lazımdır ki, hər orqanizm individualdır. İltihab əleyhinə qidalanma ümumi sağlamlıq yanaşması olsa da, xüsusilə xroniki xəstəliyi olanlar qida rasionunda köklü dəyişikliklər etməzdən öncə mütəxəssis ilə məsləhətləşməlidirlər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Arabir yağış yağacaq, şimşək çaxacaq

**Azərbaycanda avqustun 2-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, səhər şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 755 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-qərb küləyi əsəcək, səhər şimal-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 25-26°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 26-27° isti olacaq.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 30-35° isti, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 29-34° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 20-25°, bəzi yerlərdə 28° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 18-23°, bəzi yerlərdə 28° isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 25-30° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 23-28° isti, dağlarda gecə 11-16°, gündüz 19-24° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Ağdaş, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi qərb rayonlarında qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 30-35° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22° isti, gündüz 28-33° isti, dağlarda gecə 17-19° isti, gündüz 20-25° isti olacağı gözlənilir.

**"SƏBA"ASC-nin balansında olan AMKODOR 320 markalı frontal yükləyicinin 17T-475 saylı dövlət qeydiyyat nişanı və AZ 009946 saylı qeydiyyat şəhadətnaməsi naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.**

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3648
Sifariş 1680

Qiyməti 60 qəpik